


## Şuşada erməni təxribatının qarşısı alındı

*Avqustun 31-i saat 10:55 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. "Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.*

Səh.2


# UNİKAL

№32 (2166) 1 sentyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## "Qondarma rejim tərəfindən Ağdam-Xankəndi yolunun açılmasına imkan verilmir"

### Hikmət Hacıyev: "Erməni sakinlərin nümayəndələrinin əsl niyyəti məsələlərin sülh yolu ilə həlli olsaydı, Yevlax görüşünə gələrdilər"

*15 avqust səfərimizdə diplomatik korpusun nümayəndələri ilə birgə Ağdam-Xankəndi yolunun böyük ötürücülük qabiliyyətinin olduğuna şahid olmuşduq."Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Ağdam-Xankəndi yolunda AzQAC-ın ərzaq yükünün yerləşdiyi məntəqədə jurnalistlərə açıqlaması zamanı deyib. "Təəssüflər olsun ki, bu müddət ərzində yenə də siyasi manipulyasiyalarla Ermənistan və Ermənistanın Azərbaycanın Qarabağ bölgəsindəki yaratdığı və bu günə qədər dəstəkləməyə davam etdiyi qondarma kriminal rejim tərəfindən bu yolun açılmasına imkan verilmir. Azərbaycan tərəfindən dəfələrlə bəyan edilmişdir ki, Ağdam-Xankəndi yolu fəaliyyətdədir, bu yol vasitəsilə istənilən yükün çox qısa...*

Səh.3

Səh.5



## Fransanın "humanitar yük" şousu İrəvanı uçuruma sürükləyir

## "Payız aylarında qiymət artımının növbəti dalğasını yaşaya bilərik"



*REAL Partiyasının icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, payız fəslində qiymətlərin nə qədər arta biləcəyindən, son illər ətin qiymətinin hansı səbəbdən bahalaşmasından, ölkəmizdə dollara tələbin artmasından və əhalinin banklarda olan əmanətlərinin azalmasından danışıb.*

Səh.4

## Ombudsmandan ermənilərin Azərbaycan səfirliyinə hücumuna reaksiya



*Azərbaycanın Livandakı Səfirliyinə qarşı ermənisilli şəxslər tərəfindən törədilən təxribatla bağlı bəyanat yayıb. Bu barədə "Unikal"a Ombudsman Aparatından məlumat verilib. Qeyd edilib ki, Ermənistan tərəfindən tarix boyu Azərbaycan-türk diplomatlarına qarşı terror siyasəti həyata keçirilib...*

Səh.5

## "Araik də digərləri kimi cəzasını çəkəcək" - Elmar Məmmədyarov



*"Araik Arutyunyan artıq istifadə olunmuş siyasətçidir. İnanmıram ki, onun siyasətə və ya hardasa rəhbərliyə qayıtmağa imkanı olsun". Bunu "Unikal"a açıqlamasında sabiq xarici işlər naziri Elmar Məmmədyarov deyib. Siyasətçi separatçıların liderinin Qarabağdan qaçması xəbərləri ilə bağlı qeyd edib ki...*

Səh.4

# Aysundan hamam görüntülərini yayanlara: Ağıllı olun, vurduraram



***Müğənni Rəqsanə İsmayılovanın qızı Aysun İsmayılova mətbuatı hədələyib.***

Duş qəbul edərkən çəkilən görüntülərini sosial şəbəkə hesabında paylaşan ifaçı bəzi izləyicilərinin tənqidi ilə üzləşsə də bunu qəbul etməyib.

O, haqqında xəbər yazan mətbuat orqanlarını "vurduracağını" iddia edərək onları təhdid edib: "Dünən paylaşdığımız baxım videosu çox sevildi, sizdən çox gözəl rəylər aldım. Videodakı məhsullar hansılardır, nə üçündür hamısı ilə bağlı post paylaşacağam. Burdan 1 manatlıq bəzi saytlara səslənirəm, hansı ki, ondanbundan pul alırlar ki, 20-30 manat qazansınlar onlara deyirəm ki, bir az ağıllı olun! İndi sizin səhifənizi vurduracağam. 3 manatlıq səhifəniz vardı, o da getdi... Yalvarsanız da səhifənizi açdırmayacağam. Ona görə ağıllı olun, mənə ilişməyin".

# Zamiq Hüseynov şəhid övladları üçün oxudu




***Müğənni Zamiq Hüseynovun şəhid övladları ilə birgə oxuduğu "Mənim atam qəhrəmandır" nəğməsinə çəkilən klipin təqdimat mərasimi keçirilib.***

Şəhid ailələri və rəsmi qonaqlar üçün təşkil olunmuş ziyafətdə musiqisi Cəlal Qurbanov, sözləri Xanım İsmayılqızına aid, rejissorluğunu Vüsal Hacı Qadirin etdiyi "Mənim atam qəhrəmandır" klipi nümayiş olunub. 1 ay ərzində ərsəyə gələn ekran işinin iştirakçıları və mahnının ifaçıları əslində həm də həyatlarının baş rolunu oynayan, Azərbaycanın müxtəlif bölgələrindən olan şəhid övladlarıdır. Bəstə müğənni Zamiq Hüseynovla şəhid övladları ilə birgə oxunaraq lentə alınıb.

Tədbirə şəhid əmanətləri ilə yanaşı, ictimai şəxslər, millət vəkilləri, müxtəlif nazirliklərin məsul şəxsləri karifey sənətçilər, media nümayəndələri də qatılıb. Qonaqlar arasında şərəf ordenli Akif İslamzadə, yazıçı Anar, Ramiz Rövşən, xalq artistləri Alim Qasımov, Nəzakət Teymurova, əməkdar artist Gülüstan Əliyeva, sənətçilər Elnur Hüseynov, Mirələm Mirələmov, Çinarə Məlikzadə, gecənin əsas səbəbkarlarından olan Zamiq Hüseynov və başqaları yer alıb.



## "İnsanları ciddiyə almaq vaxt itkisidir" - Nura Suri

***"Birini sevən insan heç vaxt qüruruna qurban edə bilməz. Qüruruna qurban edirsə, deməli, özünü daha çox sevir. Necə qınayasan belə insanı? Özünü də sevməyin kökü sevgidir".***

Bu sözləri müğənni Nura Suri sosial şəbəkədə yazıb. O, insanları qınamağın doğru olmadığını bildirib: "Ümumiyyətlə insanları qınamaq nə qədər doğrudur? Axı, biz bilmirik kimin həyatı necə olub, uşaqlıqda hansı travmaları yaşayıb. Pis və ya yaxşı insan da yoxdur. Kiməsə görə pis və yaxşı insan var. Bir insan hamıya pis ya da yaxşı olmur axı. Birini tanımaq üçün heç kəsdən maraqlanmaq lazım deyil. Çünki insan hamıya eyni olmur. Qarşımızdakı insan içimizdəki şeytanı da oyada bilər, mələyi də... İnsanları qınamaq, ciddiyə almaq vaxt itkisidir. Onsuz da hər şey bu həyatda müvəqqətidir, hamı öləcək. Rahat olun".

## Hadisə Azərbaycanla bağlı paylaşım etdi

***Ötən günlərdə Bakıda konserti baş tutan türkiyəli müğənni Hadisə Azərbaycanla bağlı paylaşım edib.***

"Unikal" xəbər verir ki, ifaçı Bakıya səfərindən olan görüntüləri sosial media hesabında izləyiciləri ilə bölüşüb.

Hadisə videoya "Azərbaycan, səni sevirəm" qısa şərhini yazıb.

## Elcanın yaşadığı binadakı vəziyyət: "Narkomanların..."

***Aktyor və aparıcı Elcan Rəsulov paylaşımı ilə növbəti dəfə gündəmə gəlib.***

"Unikal" olay-a istinadən xəbər verir ki, o, şəhərin mərkəzində yerləşən binanın blokundakı acınacaqlı vəziyyəti yayımlayıb.

E.Rəsulov işıq sayğacının altına şprits i göstərərk bloka vaxtaşırı olaraq narkomanların daxil olduğunu da bildirib: "Şəhərin mərkəzində binaların blokuna baxın. Çox bərbad vəziyyət. Necə edək? Kimə deyək? Heç kimə".



# XİN Paşinyana cavab verdi



***31 avqust tarixində hökumət iclasında çıxışı zamanı növbəti dəfə Azərbaycanı "soyqırımı" həyata keçirməkdə təqsirləndirən Ermənistanın baş naziri Nikol Paşinyanın heç bir əsas olmadan bu kəlməni bu qədər ucuzlaşdırması Ermənistanın məsuliyyətsiz manipulyasiya fəaliyyətinin təzahürüdür.***

Bu barədə "Unikal"a Azərbaycan XİN-dən məlumat verilib.

Ehtiyac olacağı təqdirdə erməni sakinlərə yüklərin çatdırılması üçün Ağdam-Xankəndi yolundan istifadə ilə paralel olaraq, Laçın yolundan hərəkətin intensivləşməsi təklifinə qarşı çıxan ermənilərin bəzi nümayəndələrinin təxribatçı addımlarına etiraz etmək əvəzinə, Azərbaycanın erməni sakinləri ac saxladığı ilə təqsirləndirən Baş nazirə xatırlatmaq istərdik ki, hal-hazırda, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Ağdam-Xankəndi istiqamətinə göndərilmiş yük maşınları ərazidə Xankəndinə keçidi gözləyir. Erməni tərəfinin əgər həqiqətən aparılan yüklərə ehtiyacları olsaydı, sülhməramlı kontingent tərəfindən yolun bloklanmasını tələb edərək bu yüklərin əraziyə keçidinə mane olmazdılar. Erməni sakinlərin yanaşması bir daha göstərib ki, Ermənistanın və erməni sakinlərin bəzi nümayəndələrinin "humanitar vəziyyət" ilə bağlı iddiaları siyasi manipulyasiyadan başqa bir şey deyil.

Laçın yolunun birtərəfli qaydada açılması və erməni sakinlərin qovulması planları barədə iddiaya gəldikdə bildirmək istərdik ki, hal-hazırda erməni sakinlərin Laçın sərhəd buraxılış məntəqəsindən hər iki istiqamətdə keçidinə şərait yaradılır və Azərbaycan tərəfinin bölgədə etnik təmizləmə siyasəti həyata keçirməkdə təqsirləndirilməsi absurddur.

Görünür, 30 ilə yaxın müddətdə nəinki işğal etdiyi Azərbaycan ərazilərindən, hətta 1980-ci illərin sonunadək indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı soyqırımı, kütləvi qırğınlar və etnik təmizləmə həyata keçirən Ermənistan tərəfi hər bir dövlətin eyni yanaşma tətbiq etdiyini və eyni anlayışa sahib olduğunu düşünür.

Azərbaycanın ərazi bütövlüyünü sözdə dəstəkləyən Ermənistan Baş naziri yaxşı olardı ki, Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətini də dəstəkləsin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı müdaxilələrdən çəkinsin.

Ümidvarıq ki, Ermənistan tərəfi post-münaqişə dövründə bölgədə formalaşmış reallıqları düzgün qiymətləndirəcək və sülhün bərqərar olunması üçün Azərbaycanla danışıqlarda konstruktiv mövqe sərgiləyəcək.

# Türkiyə Azərbaycanın səylərini sona qədər dəstəkləyir - Səfir



***Üç ildir davam edən sülh prosesi var. Sülh danışıqları zamanı humanitar böhran yaratmaq səyləri sülhə kömək etməyəcək, əksinə, bu prosesi dayandıracaq. Əgər məsələ ərzaqdırsa, o zaman bunun Azərbaycanın təklif etdiyi ərazi daxilində həll yolu var.***

"Unikal" xəbər verir ki, bunu diplomatik korpus nümayəndələri ilə Ağdam-Xankəndi yoluna səfər etmiş Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı deyib.

"Söhbət humanitar böhrandan gedirsə, Xankəndi ilə aramızdakı yol ən qısa məsafədir. Əgər hansısa ehtiyac varsa, bununla bağlı Azərbaycan Qızıl Aypara Cəmiyyəti humanitar addım atıb, yük maşınları ilə un gətirib. Bunun qəbul edilməsi lazımdır", - deyə o əlavə edib.

Cahit Bağçı bildirib ki, Türkiyə Azərbaycanın bu istiqamətdəki səylərini sona qədər dəstəkləyir.

# Səfər Mehdiyevin yolundan çıxmayanlar...

## DGK-nin daha bir əməkdaşı həbs olundu - "Böyük təmizləmə" davam edir

***Yola salmaq üzrə olduğumuz həftə Dövlət Gömrük Komitəsinin (DGK) daha bir əməkdaşı külli miqdarda rüşvətə görə həbs edildi. Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən verilən məlumatda bildirilib ki, Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Ekspertizası İdarəsinin eksperti vəzifəsində işləyən Aslan Bayramovun qanunsuz əməlləri barədə həmin Komitədən daxil olmuş məlumat əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində cinayət işi başlanıb.***

Aparılmış istintaq-əməliyyat tədbirləri ilə Aslan Bayramovun qeyd edilən vəzifədə işləyərkən ayrı-ayrı şəxslərdən rüşvət qismində aldığı 13 min 500 manat məbləğində pul vəsaiti müqabilində vəzifə səlahiyyətlərindən sui-istifadə edərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İstismar olunan minik avtomobillərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsinin məhdudlaşdırılması haqqında" 29.03.2023-cü il tarixli qərarının tələblərini pozmaqla vəzifə saxtakarlığı törətməsinə, yəni 2023-cü ilin may-avqust aylarında Gürcüstandan Azərbaycana idxal olunmuş istehsal tarixi 10 ildən artıq olan ümumilikdə 45 avtomobilə aid sənədləri saxtalaşdıraraq qanunsuz rəsmiləşdirməsinə əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış sübutlar əsasında Aslan Bayramov Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 (təkrar rüşvət alma), 311.3.3 (külli miqdarda rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.



Xatırladaq ki, ötən ildən DGK-də genişmiqyaslı təmizləmə aparılır. Öncə Dövlət Təhlükəsizliyi Xidməti Dövlət Gömrük Komitəsi yanında "Azərterminalkompleks" birliyinin direktoru vəzifəsində işləyən Xəlilov Ehtiram Səyyaf oğlunu saxlamış və 1 iyul 2022-ci il tarixdə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdi. Onun həbsinə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə qanunvericiliklə müəyyənləşdirilmiş gömrük hərraclarının təşkili və həyata keçirilməsi qaydalarını pozaraq ayrı-ayrı şəxslərlə qabaqcadan əldə edilmiş razılığa əsasən dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin real dəyərindən aşağı qiymətləndirilməsini və satılmasını təmin etməklə dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasına, bu qanunsuz hərəkətlərə görə tabeçiliyində işləyən əməkdaşlar vasitəsilə müxtəlif şəxslərdən külli miqdarda rüşvət alması idi.

Bundan başqa, ötən ilin yayında Dövlət Gömrük Komitəsinin Əməliyyat-istintaq Baş İdarəsinin rəisi Məsum Rəsulov da Dövlət Təhlükəsizlik Xidmətində davam edən cinayət işi çərçivəsində saxlanılmışdı. O, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmişdi.

Bütün bunların fonunda isə 2022-ci il iyulun 16-da DGK-nin o vaxtkı sədri Səfər Mehdiyevin vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalanmışdı.

Proses bununla da yekunlaşmayıb. Aradan keçən müddətdə DGK-də bir sıra vəzifəli şəxslər postlarından kənarlaşdırılıb, onlar yeni kadrlarla əvəzlənib, eyni zamanda bəziləri hüquqi məsuliyyətə cəlb olunublar. Lakin görünən odur ki, qurum daxilində bir sıra əməkdaşlar vaxtilə Səfər Mehdiyevin müəyyənləşdirdiyi "iş prinsiplərinə" sadiq qalmaq yolu tutublar. Çoxsaylı həbslər belə onları qorxutmayıb və hələ də həmin "prinsiplər" əsasında fəaliyyət göstərməkdən çəkinmirlər. Elə bir neçə gün öncə Mərkəzi Gömrük Ekspertizası İdarəsinin eksperti vəzifəsində çalışan A.Bayramovun külli miqdarda rüşvət, vəzifə saxtakarlığı və s. kimi ağır ittihamlarla həbsi də bundan xəbər verir.

Eyni zamanda belə qənaətə gəlmək olar ki, gömrük sistemində Səfər Mehdiyev zamanından qalma qanunsuzluqların tam aradan qaldırılması, eləcə də belə qanunsuzluqlara imza atanların tamamilə təmizlənməsi istiqamətində addımlar davam edəcək. Ona görə də sözügedən sistemdə çalışanların öz fəaliyyətlərini yeni tələblərə uyğun şəkildə, şəffaf həyata keçirmələrində böyük fayda var. Əks halda sonradan böyük peşmanlıq yaşaya bilərlər. Sonrakı peşmanlığın isə hələ ki, kimsəyə faydası olmayıb...

***Toğrul Əliyev***

# Fransanın “humanitar yük” şousu İrəvanı uçuruma sürükləyir



***Avqustun 31-də Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. XİN-dən ”Unikal”a verilən məlumata görə, görüş zamanı, Paris şəhərinin meri Ann İdalqo daxil olmaqla Fransanın bir neçə şəhərinin rəhbər şəxslərinin müşayiəti ilə “humanitar yük” adı altında Laçın sərhəd buraxılış məntəqəsi istiqamətinə nəqliyyat vasitələrinin göndərilməsi və həmin şəxslər tərəfindən Azərbaycana qarşı təxribatçı bəyanatlar səsləndirilməsi ilə bağlı XİN-in etiraz notası Fransa səfirinə təqdim edilib.***

Fransa tərəfinin bu addımlarının Azərbaycanın daxili işlərinə birbaşa müdaxilə olmaqla yanaşı, ölkəmizin beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı qəsd olduğu vurğulanıb. Qeyd olunub ki, Ermənistanın yalan və manipulyasiya kampaniyasına alət olan bu təxribatçı əməllər bölgədə vəziyyətin gərginləşməsinə yönələn və Fransa tərəfindən Ermənistanın revanşist mövqeyini davam etdirməyə həvəsləndirən və son günlər daha da intensivləşən addımların növbəti nümunəsidir.

Azərbaycan tərəfi, beynəlxalq humanitar yardımın göndərilməsi ilə bağlı beynəlxalq hüquqi çərçivəyə zidd olaraq nümayişkaranə şəkildə Azərbaycan tərəfi ilə razılaşdırmadan, onun iradəsinin əksinə Azərbaycanın beynəlxalq tanınmış ərazisinə hər hansı bir ad altında yüklərin göndərilməsi cəhdini təxribatçı əməl kimi qiymətləndirib və buna qəti etirazı qarşı tərəfin diqqətinə çatdırıb. Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn, regionda beynəlxalq aktorların fəal səyləri ilə irəlilədilən kövrək normallaşma prosesini təhlükə altına alan addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

Fransanın Azərbaycana qarşı sərgilədiyi mövqe və atdığı addımlar heç bir diplomatik qaydalara, dövlətlərarası münasibətlərin həmılıqla qəbul edilmiş prinsip və normalara sığmır. Bunu heç diplomatik və siyasi təzyiq də adlandırmaq olmaz. Rəsmi Paris ermənilərin uydurduğu humanitar böhran pərdəsi altında Azərbaycana qarşı açıq aşkar düşmənçilik edir və bütün bunlar suveren bir dövlətə yönəlik təcavüzdür. Bu fikirləri “Unikal”a **AMİP liderinin köməkçisi, politoloq Əli Orucov** Fransanın Azərbaycanla bağlı atdığı addımlara münasibət bildirərkən deyib.

Politoloq daha sonra deyib: ”Fransanın Ermənistanla dost və müttəfiq olmasında azaddır. Lakin bu dostluq və müttəfiqlik üçüncü dövlətə, Azərbaycana qarşı yönəlirsə və bu real təhlükələr yaradırsa rəsmi Bakı məcburdur ki, özünü xarici aqressordan qorusun və adekvat cavab versin. Digər tərəfdən Fransa həm BMT TŞ-nın 5 daimi üzvlərindən və ATƏT-in Minsk Qrupunun keçmiş 3 həmsədr ölkəsindən biri kimi Ermənistan- Azərbaycan münasibətlərinin normallaşması və regionda davamlı sülhün, təhlükəsizliyin qorunmasına birbaşa məsuliyyət daşıyır. Eyni zamanda Avropa İttifaqı Şurasının sülh prosesinə yardımçı olduğu və regionda süni gərginliyin yarandığı bir zamanda Fransanın təhrikedici və təxribatı qəbuledilməzdir. Hesab edirəm ki, Fransa prezidenti başda olmaqla digər rəsmi şəxslərin Azərbaycan dövlətini birbaşa hədəf götürməsi heç bir əxlaqa, heç bir mənəviyyata və heç bir hüquq normalarına sığmır. Məncə, rəsmi Bakı özünü müdafiə hüququndan istifadə edərək Fransanın Azərbaycandakı iqtisadi və siyasi maraqlarına yenidən baxmalı, sülh prosesində Parisin hansısa formada iştirakına qəti imkan verməməli və bütün digər vasitələrdən istifadə etməlidir”.

**Siyasi şərhçi Aqşin Kərimov** isə məsələyə fərqli prizmadan münasibət bildirib. Onun sözlərinə görə, Rusiya Fransanın da müşayiəti ilə Ermənistanın Laçındakı sərhəd-buraxılış məntəqəsindən Qarabağa humanitar yük karvanı göndərmək cəhdini Kreml üçün müdaxilə imkanları kimi nəzərdən keçirir: “Yəni, regionda nə qədər gərginlik olarsa, Moskva əlini bu narahatlıqların arasına salıb müxtəlif manevrlər etmək üçün qeydlərini diqqətə çatdırır. Rusiya Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır, buna şübhələr yoxdur, lakin Ermənistana mesajı ondan ibarətdir ki, baş verənlərin günahkarı sən özünsən. Kreml üçün Ermənistanın taleyi o qədər də maraqlı deyil, ona görə Moskvanın regiondakı prioriteti 200 illik erməni kartı ilə ayaqda durmaq və bölgəyə özünə rəqib olan kənar qüvvələr buraxmamaqdır. Rəsmi Moskva Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasından yox, onun başqa oyunçularla əlaqəli şəkildə plan qurmasından narahatdır. Beləliklə, Rusiya Ermənistanın tamamilə öz kölgəsi altında qalmasında maraqlıdır, ona görə də “sən Qarabağı sırf mənim himayəm altında Azərbaycan ərazisi kimi tanısaydın, bu qədər problem yaşamazdın” xəbərdarlığını edir. Zaxarovanın çıxışı Ermənistanın gələcək üçün Moskvanın axıtdığı plazmaların içərisində əridilməsinə hazırlıq mərhələsinin anonsu kimi qeyd oluna bilər”.

Şərhçi hesab edir ki, Rusiyanın başı Ukraynaya qarışsa da, Azərbaycanla Ermənistan arasındakı danışıqların mərkəzinə çevrilmək üçün regional bəhanələr yaratmağa davam edəcək: “Qərb prosesdən kənara çəkilən deyil, bu baxımdan, Avropa İttifaqı formatında Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması davam etdiriləcək və prosesə ABŞ kölgəsini salacaq. Regionda gərginlik davam edəcək, hətta Azərbaycan-Ermənistan sərhədində toqquşmalar baş verə bilər. Bunun fonunda Azərbaycan hökumətinin Qarabağ erməniləri ilə təmaslar planı qüvvədən düşməyib və gələcəkdə mümkün müzakirələrin baş tutacağı istisna deyil”.

***M.İbrahimli***




# Ağdam marşrutunun işə düşməsi niyə önəmlidir? - Ekspert rəyi

***“Azərbaycan Ağdam-Xankəndi marşrutu açıldığı halda Laçın yolundan da yüklərin daşınmasına icazə verəcək: postdan mülki əhali ilə yanaşı, yüklər də keçəcək və hər iki marşrut - Ağdam və Laçın paralel şəkildə işləyəcək. Bu məsələ müəyyən suallar yaradır, xüsusilə Bakı niyə buna razılaşır, ümumiyyətlə buna ehtiyac varmı? Azərbaycan öz suveren ərazisində istədiyi addımı atmaq haqqına sahibdir, lakin mövcud reallıqda nəticə əldə etməyin yolu müəyyən gedişlərin edilməsini də tələb edir. Və bu, Ağdam yolunu işlək vəziyyətə salmaq üçün Laçın yolundan yüklərin buraxılmasına razılaşmaqdan ibarətdir”.***

Bu fikirləri siyasi şərhçi Asif Nərimanlı səsləndirib. O bildirib ki, Xankəndinə yüklərin Ağdam marşrutundan daşınmasını praktiki olaraq iki qüvvə həyata keçirə bilər: biri Beynəlxalq Qırmızı Xaç Komitəsidir (BQXK), digəri Rusiya sülhməramlıları; BQXK bunu etməkdən imtina edir, hərçənd, rusların bölgədəki rolu fonunda istəsə belə nəticə əldə etməsi çətin görünür: “Mövcud vəziyyətdə Ağdamdan Xankəndinə yüklərin çatdırılmasını Rusiya sülhməramlıları həyata keçirə bilər. Ruslar bunun qarşılığında Bakıdan Laçın postundan da yüklərin keçidinə icazə verilməsini istəyir, çünki bu məsələ ermənilərin istəyindən daha çox, artıq regional mübarizənin bir hissəsinə çevrilib. Fransanın timsalında bölgəyə müdaxilə etmək istəyən tərəflərin Laçın yolu ətrafındakı manevrləri də bunu deməyə əsas verir. Rusiya Laçın yolundan yüklərin keçidinə nail olarsa, başda Fransa olmaqla bölgəyə praktiki müdaxiləyə cəhd edən tərəfləri önünü kəsə biləcəyini hesab edir. Beynəlxalq oyunçuların toqquşması fonunda Bakının qarşısında iki qüvvə var: Ağdam marşrutuna qarşı çıxan, nəinki Laçın yolundan yüklərin keçidinə, hətta “Laçın dəhlizi”nin bərpasına nail olmağa çalışan Fransa və Ağdam və Laçın yollarının paralel açılmasına razılaşan Rusiya. Azərbaycan hədəfinə nail olmaq üçün bu qüvvədən biri ilə - Rusiya ilə razılaşır:

“Birincisi, Ağdam marşrutunu işlək vəziyyətə gətirmək və yardımları Xankəndinə çatdırmaq. İkincisi, Fransanın praktiki mərhələdə də qarşısını almaq, oyundan uzaqlaşdırmaq. Üçüncüsü, BMT Təhlükəsizlik Şurası da daxil olmaqla beynəlxalq müstəvidə Azərbaycana qarşı atılacaq addımların önün kəsmək. Rusiya sülhməramlıları Ağdam yolunda gözləyən humanitar yardımın Xankəndinə daşınması ilə bağlı danışıqlar aparır, yəni artıq nəticənin əldə edilməsi istiqamətində müəyyən addımlar var”.

Ağdam marşrutunun işə düşməsi niyə önəmlidir?

Şərhçi hesab edir ki, birincisi, bunun qarşılığında Laçından da yüklərin keçidinə icazə verilsə belə, Azərbaycan məhsullarının bu marşrut üzrə daşınması Xankəndinə praktiki olaraq daxil olmağımız deməkdir: “İkincisi, beynəlxalq müstəvidə aparılan “Qarabağda humanitar fəlakət” kampaniyası mənasızlaşacaq. Üçüncüsü, Azərbaycan məhsullarının erməni əhalisinə çatdırılması reinteqrasiya prosesində önəmli addım olacaq. Dördüncüsü, bu marşrutun işlək vəziyyətə gətirilməsinin ardınca BQXK-nin Xankəndindəki ofisinin İrəvan yox, Bakı nümayəndəliyinə tabe olması və erməni əhalisinin Azərbaycan xəstəxanalarında müalicə seçimi də gündəmə gələcək. Beşincisi, Laçın sərhəd-keçid məntəqəsi bu yoldan daşınan yüklərə nəzarət və daşımalara müəyyən məhdudiyyətlərin qoyulması imkanı verir: beləliklə, əsas təminatın tədricən Ağdam yoluna transfer edilməsi perspektivi mövcuddur. Lakin bunun üçün ilk öncə Ağdam-Xankəndi marşrutundan yüklərin keçidinə nail olmaq lazımdır. Ki, mövcud şərtlərdə Rusiyanın “Laçın yolu” istəyinə şərait yaratmaqla bunu edə bilərik. Və bu məsələyə Laçın yolunda sərhəd-keçid məntəqəmizin olduğu, Azərbaycan sərhədçiləri və gömrükçülərinin orada hər şey şeyə nəzarət etdiyi reallığı fonunda yanaşmaq lazımdır”.

# Prezident bu icra başçısını işdən çıxardı



***Siyam Çərkəz oğlu Hacıyev Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.***

”Unikal” xəbər verir ki, bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

# Qubaya yeni icra başçısı təyin edildi



***İlqar Akif oğlu Mahmudov Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.***

Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

”Unikal”ın əldə etdiyi məlumata görə, İlqar Mahmudov bu sərəncamadək Elm və Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin müdiri olub.

O, daha əvvəl Bakı Humanitar Kollecin direktoru işləyib.

# "Qanunsuz rejim ləğv olunmalı və tərksilah edilməlidir" - Hikmət Hacıyev

***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tədarük etdiyi buğda ununun mənşəyinə görə (Azərbaycan) rədd edilməsi qeyri-qanuni kukla rejimin güddüyü irqçilikdir.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “X”də yazıb.

”Azərbaycan artıq öz torpağında “boz” nəzarətsiz zonaya dözə bilmir. Qanunsuz rejim ləğv olunmalı və tərksilah edilməlidir”, - Prezidentin köməkçisi qeyd edib.

# Ərdoğan ölkəsinin Azərbaycana dəstəyindən danışdı



***“Azərbaycanın işğaldakı ərazilərini geri almasına dərhal yardım etdik”.***

“Unikal” Türkiyə mətbuatına istinadən xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

O, sülh və dincliyin vacibliyini vurğulayaraq ölkəsinin bu istiqamətdə səy göstərdiyini diqqətə çatdırıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Prezidentlər tərəfdaşlığın bütün sahələrini nəzərdən keçirəcəklər

***Yaxın vaxtlarda Putin və Ərdoğanın iştirakı ilə növbəti qeyri-rəsmi sammit keçiriləcək, prezidentlər tərəfdaşlığın bütün sahələrini nəzərdən keçirəcək.***

”Unikal” xəbər verir ki, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov türkiyəli həmkarı Hakan Fidanla danışıqlarının yekunlarına dair birgə mətbuat konfransında bildirib.

Lavrov Türkiyənin xarici işlər naziri ilə Ukrayna ətrafındakı vəziyyəti ətraflı müzakirə etdiyini, Zelenski Formulunun təbliğinin mümkünsüzlüyünü qarşı tərəfə izah etdiyini deyib.

# Deputatların tətili başa çatdı

***Azərbaycan Milli Məclisinin deputatlarının tətil müddəti başa çatıb.***



”Unikal” xəbər verir ki, millət vəkillərinin yay tətili avqustun 30-da bitib. Sentyabrın 15-dən etibarən parlamentin komitələri fəaliyyətə başlayacaq.

Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, parlamentin payız sessiyası sentyabrın 30-da başlayır və dekabrın 30-dək davam edir.

Əgər sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır.

# Şuşada erməni təxribatının qarşısı alındı

Avqustun 31-i saat 10:55 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

”Unikal” xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.




# Beynəlxalq ictimaiyyəti Azərbaycanı dəstəkləməyə çağırdılar

***İsveç Krallığında fəaliyyət göstərən Azərbaycan icması ölkəmizin sülh səylərinin dəstəklənməsi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib.***

Diasporla İş üzrə Dövlət Komitəsindən ”Unikal”-a bildirilib ki, İsveç Azərbaycanlıları Koordinasiya Şurası adından Birləşmiş Millətlər Təşkilatının (BMT) Cenevrədəki mənzil-qərargahına ünvanlanan bəyanatda bildirilib ki, azərbaycanəsilli isveçlilər Ermənistanda mövcud olan revanşist əhvali-ruhiyyəli qüvvələrin və erməni diasporunun yolverilməz əməlləri nəticəsində Cənubi Qafqaz regionunda yaranmış mövcud vəziyyətdən dərin narahatlıq hissi keçirirlər.



Bəyanatda 30 il ərzində Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycanın Qarabağ bölgəsinin xarabalığa çevrildiyi və 2020-ci ildə baş vermiş müharibədən sonra qalmış aktual problemlərin son 3 il ərzində həll olunmadığı nəzərə çatdırılıb.

Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minalar nəticəsində bu günədək Azərbaycanın 300-dən çox günahsız mülki vətəndaşının və hərbi qulluqçusunun həlak olduğu və yaralandığı, regional əməkdaşlığa sadiqliyini qonşu Gürcüstanın timsalında sübut edən Azərbaycanın beynəlxalq hüquqa uyğun olaraq öz ərazilərində, o cümlədən nəqliyyat-kommunikasiya yolları üzərində suverenliyini qorumağa çalışdığı, Xankəndi-Laçın yolunun açıq olduğu kimi faktlar bir daha sadalanıb.

İsveç Azərbaycanlıları Koordinasiya Şurası bu kritik və önəmli mərhələdə beynəlxalq təşkilatları erməni uydurmalarına inanmamağa çağırıb. İşğaldan azad edilmiş Qarabağda irimiqyaslı bərpa-yenidənqurma layihələri həyata keçirmək məqsədilə bölgəyə çoxmilyardlı sərmayələr yatıran Azərbaycanın sülhsevər mövqeyini əməli şəkildə dəstəkləməyə və tərəflər arasında konstruktiv dialoqun təşviqinə yardım göstərməyə dəvət edib.

# XİN başçıları "Taxıl sazişi" barədə nə danışdılar...

***Türkiyənin xarici işlər naziri Hakan Fidan Rusiyanın xarici işlər naziri Sergey Lavrovla ”Taxıl sazişi”ni müzakirə edib.***

Bu barədə o, birgə mətbuat konfransında danışıb. Fidanın sözlərinə görə, taxıl müqaviləsinin bərpası qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün çox vacibdir. ”Biz Qara dənizdə qlobal ərzaq təhlükəsizliyi və sabitlik üçün sazişin kritik rolunu vurğuladıq”, - o qeyd edib. Nazir vurğulayıb ki, BMT Türkiyə ilə birlikdə taxıl sazişinin bərpası üçün əsas ola biləcək yeni təkliflər hazırlayıb.

Lavrov da öz növbəsində bildirib ki, hazırda dünyada ərzaq böhranı yoxdur və Qərb Rusiyanın taxıl müqaviləsi çərçivəsində irəli sürdüyü şərtlərə konstruktiv yanaşmaq istəmir. Lavrov Rusiya prezidenti Vladimir Putinlə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın yaxın vaxtlarda görüşəcəyinidə bildirib.

# Erməni azlıq nümayəndələri ilə təcili görüş keçirilməlidir - Dövlət Departamenti

***Son bir neçə həftə ərzində ABŞ Qarabağa humanitar yardımın çatdırılmasını təmin etmək üçün Azərbaycan və Ermənistanla fasiləsiz işləyir.***

”Unikal” xəbər verir ki, bu barədə ABŞ Dövlət Departamentinin bəyanatında deyilir.

Bəyanatda deyilir ki, Qarabağda əhali üçün zəruri ərzaqların daşınması yollarını, o cümlədən əlavə təchizat marşrutlarını razılaşdırmaq və bütün həll edilməmiş məsələlərin müzakirəsini bərpa etmək üçün Azərbaycan və Qarabağdakı erməni azlıq nümayəndələri arasında təcili görüş keçirilməlidir.

Qeyd edək ki, avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli insanların ehtiyaclarını ödəmək üçün ərzaq məhsullarının çatdırılmasını təşkil edib. İlkin mərhələdə Ağdam-Xankəndi marşrutu ilə 40 ton unun çatdırılması nəzərdə tutulur.

Ermənistan və onun yaratdığı cinayətkar separatçı rejim yüklərin çatdırılması üçün Ağdam-Xankəndi yolunun açılmasına mane olur.

# "Qondarma rejim tərəfindən Ağdam-Xankəndi yolunun açılmasına imkan verilmir"

## Hikmət Hacıyev: "Erməni sakinlərin nümayəndələrinin əsl niyyəti məsələlərin sülh yolu ilə həlli olsaydı, Yevlax görüşünə gələrdilər"



***15 avqust səfərimizdə diplomatik korpusun nümayəndələri ilə birgə Ağdam-Xankəndi yolunun böyük ötürücülük qabiliyyətinin olduğuna şahid olmuşduq.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Ağdam-Xankəndi yolunda AzQAC-ın ərzaq yükünün yerləşdiyi məntəqədə jurnalistlərə açıqlaması zamanı deyib. "Təəssüflər olsun ki, bu müddət ərzində yenə də siyasi manipulyasiyalarla Ermənistan və Ermənistanın Azərbaycanın Qarabağ bölgəsindəki yaratdığı və bu günə qədər dəstəkləməyə davam etdiyi qondarma kriminal rejim tərəfindən bu yolun açılmasına imkan verilmir. Azərbaycan tərəfindən dəflərlə bəyan edilmişdir ki, Ağdam-Xankəndi yolu fəaliyyətdədir, bu yol vasitəsilə istənilən yükün çox qısa müddətdə Xankəndinə və ətraf ərazilərə çatdırılması təmin oluna bilər. Bu yoldan bu şəkildə imtina edilməsini rasizm və diskriminasiya kimi qiymətləndiririk", - Hikmət Hacıyev əlavə edib.

Prezident köməkçisi onu da nəzərə çatdırıb ki, Azərbaycan yolları açaraq reinteqrasiya prosesini başlatmaq niyyətindədir. "Bu prosesin tərkib hissəsi olaraq, Azərbaycan Qarabağda yaşayan erməni sakinlərin hüquqlarını, təhlükəsizliyini və öhdəliklərini Azərbaycan Konstitusiyası və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sənədlər əsasında təmin etməyə hazırdır. Amma görürük ki, yol mövzusunu məqsədyönlü şəkildə erməni tərəfi siyasi spekulyasiya və siyasi manipulyasiya mövzusuna çeviriblər", - o əlavə edib.

H.Hacıyev deyib ki, dünən Rusiya sülhməramlıları ilə Azərbaycan tərəfi arasında təmaslar aparılıb. Onun spzlərinə görə, bu yüklərin Rusiya sülhməramlılarının yük maşınlarına daşınaraq onların vasitəsilə aparılması məsələsi də müzakirə mövzusu olub. "Amma dünən KİV-lərdə gedən məlumatlar və sosial media şəbəkələrində yayılan videolar da göstərdi ki, bəzi təşkil olunmuş aksiyalar vasitəsilə buna da mane olmağa cəhd göstərirlər. Bu yüklərin bura çatdırılması bir daha Azərbaycanın niyyətinin göstəricisidir. Amma yüklərin qəbul edilməməsi və bundan imtina edilməsinə görə də məsuliyyət tam şəkildə qondarma rejimin üzərinə düşür və bu eyni zamanda Ermənistan tərəfinin üzərinə düşür ki, onlar da bu manipulyativ prosesdə öz müəyyən funksiyalarını, rollarını oynamaqda davam edirlər, - o deyib.

Prezidentin köməkçisinin sözlərinə görə, beynəlxalq ictimaiyyətin nümayəndələri də, Azərbaycanda akreditasiya olunmuş diplomatik korpus nümayəndələri də öz gözləri ilə bir daha görürlər ki, burada yalançı təbliğat siyasəti aparılır. "Təəssüflər olsun ki, bəzi Qərb medialarında da yalan faktlar verilir, mövcud vəziyyətə başqa bir don geyindirmək cəhdləri də edilir. Bu prosesdə bəzi korrupsioner Qərb siyasətçiləri öz rollarını oynamaqdadırlar və onlar tərəfindən separatizmə dəstək verilməsi, separatistlərin də yaxşı və pis separatistlərə bölünməsi tendensiyalarını da biz görürük ki, bunlar qəbuledilməzdir", - Hikmət Hacıyev əlavə edib.

"Ermənistan Azərbaycanla razılaşdırılmadan demonstrasiya və populizm məqsədilə müxtəlif yük maşınlarını Azərbaycanın sərhədinə, yəni Laçın sərhəd-keçid məntəqəsinə gətirmişdir. Dünən isə erməni lobbisinin tərəfdarı və təsirində olan bəzi korrupsioner Avropa siyasətçiləri də bu teatr xarakteri daşıyan dramın tərkib hissəsi olaraq Azərbaycan sərhədinə doğru gəliblər. Bu kimi addımların heç bir mənası yoxdur və bu kimi ucuz şou xarakterli addımlardansa real məsələləri yerində həll etmək lazımdır", - o əlavə edib.

***İnformasiya şöbəsi***

# Kamran Əliyev livanlı həmkarı ilə səfirliyimizə hücumu müzakirə etdi

***Bir çox yerli və xarici media resurslarında avqustun 29-da Azərbaycan Respublikasının Livan Respublikasındakı Səfirliyi qarşısında aksiya keçirən 50-yə yaxın erməni əsilli şəxsin səfirliyin inzibati binasının ətrafındakı hasara zərbələr endirib, özləri ilə gətirdikləri içərisində boya olan və partlayıcı bərkidilmiş şüşələri, eləcə də bərk cisimləri səfirliyin inzibati binasına atmalarını əks etdirən videogörüntülər yayılıb.***



"Unikal" xəbər verir ki, qeyd olunan məsələ ilə bağlı Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev Livan Respublikasının Baş Prokuroru Qassan Ueydat ilə telefon danışığı aparıb.

Danışıq zamanı beynəlxalq norma və prinsiplərə, eyni zamanda daxili qanunvericiliyə uyğun olaraq hərtərəfli, tam və obyektiv istintaq aparılmaqla təqsirkar şəxslərin dairəsinin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmələri istiqamətində zəruri və təxirəsalınmaz tədbirlərin görülməsi xahiş olunub.

Həmçinin, qeyd olunan faktın istintaqı ilə bağlı Azərbaycan Respublikasının dəstəyi və əməkdaşlığı təklif olunub.

Tərəflər məsələ ilə bağlı koordinasiyalı fəaliyyətin aparılacağı barədə razılığa gəlib.



# Xarici diplomatlar Ağdam-Xankəndi yolunda

***Xarici diplomatlar Ağdam-Xankəndi yolunda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ərzaq yüklərinin yerləşdiyi məntəqə ilə tanış olublar.***

"Unikal" xəbər verir ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, hərbi attaşelər və xarici jurnalistlər avqustun 31-də Qarabağda yaşayan erməni əsilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən təşkil olunan ərzaqdan ibarət yüklərin yerləşdiyi məntəqəyə gəliblər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev diplomatlara və xarici jurnalistlərə mövcud vəziyyət barədə ətraflı məlumat verib.

Qeyd edək ki, avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) tərəfindən Qarabağda yaşayan erməni əsilli sakinlər üçün 40 ton un göndərilib. Yük avtomobilləri Rusiya sülhməramlılarının Ağdam-Xankəndi yolundakı postunda gözləyir. Ərzaq dolu yükün Xankəndiyə çatdırılmasına şərait yaradılması üçün Rusiya sülhməramlı kontingentinin komandanlığına müraciət olunub.

# Zakir Həsənov Yaşar Gülərlə görüşdü



***Türkiyədə işgüzar səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin milli müdafiə naziri cənab Yaşar Gülər ilə görüşüb.***

Müdafiə Nazirliyindən (MN) verilən məlumata görə, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun da iştirak etdiyi görüşdə hər iki qardaş və dost ölkələrin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyi xüsusi vurğulanıb.

Azərbaycan və Türkiyə respublikaları arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu qeyd edilib.

Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, həmçinin bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsinin vacibliyi bildirilib.

# Mikayıl Cabbarov Patrik Puyanne ilə görüşdü



***İqtisadiyyat naziri Mikayıl Cabbarov "TotalEnergies" şirkətinin baş icraçı direktoru Patrik Puyanne ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə o öz "X" profilində paylaşım edib. Bildirilib ki, Patrik Puyanne ilə şirkətin ölkəmizlə uğurlu tərəfdaşlığı, energetika sahəsində həyata keçirilən birgə layihələr və bərpa olunan enerji istehsalı üzrə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.



## "Araik də digərləri kimi cəzasını çəkəcək" - Elmar Məmmədyarov

***"Araik Arutyunyan artıq istifadə olunmuş siyasətçidir. İnanmıram ki, onun siyasətə və ya hardasa rəhbərliyə qayıtmağa imkanı olsun".***

Bunu "Unikal"a açıqlamasında sabiq xarici işlər naziri Elmar Məmmədyarov deyib.

Siyasətçi separatçıların liderinin Qarabağdan qaçması xəbərləri ilə bağlı qeyd edib ki, gec-tez o da məsuliyyətə cəlb olunacaq: "Bundan sonra hara qaçacaq? Qaçmaq istəyirsə, qaçsın. Amma gec-tez məsələsi var. Necə digərləri məsuliyyətə cəlb olunursa, onun da öz cəzasını çəkməsi birmənalıdır. Bu, artıq Baş Prokurorluğun işidir.

İndi yalnız qarşıya baxmalıyıq. Görək yeni "dövlət naziri" hansı mövqeydə çıxış edəcək? O, Azərbaycan tərəfi ilə təmasda olub, Xocalıda görüşüblər".

***Ağarza Elçinoğlu***

## Qərbi Azərbaycan İcmasından növbəti çağırış

***Müstəqil, tərəfsiz və humanizm prinsipləri əsasında işləyən Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz təşəbbüsü ilə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin mümkün ehtiyacını ödəmək üçün 40 ton unu Ağdam-Xankəndi yolu vasitəsilə aparmağa çalışır.***

Qərbi Azərbaycan İcmasından verilən məlumata görə, lakin həmin bölgədəki qondarma rejim Ermənistanın fitnəsi ilə, Qızıl Aypara Cəmiyyətinin ərzaq konvoyunun oraya daxil olmasına imkan vermir:

"Bütün bunlar həmin bölgədə yaşayan ermənilərin ərzaq, xüsusilə un çatışmazlığı ilə üzləşdiyi barədə Ermənistanın davamlı təbliğatı fonunda baş verir. Ermənistanın Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ehtiyacı olanları ərzaq ilə təmin etməsinin qarşısını alması Qarabağın erməni əhalisinin ərzaqla təminatında əslində problem olmadığını və ya yardıma ehtiyac olmasına baxmayaraq bu yardımdan mənfur siyasi məqsədlər və etnik nifrət səbəbilə imtina edildiyini göstərir.

Hər bir halda, Ermənistanın bu addımı bu dövlətin irqçi siyasətini və mülki əhalinin humanitar ehtiyaclarından siyasi məqsədlərlə sui-istifadə edəcək dərəcədə riyakar və qəddar olmasını göstərir.

Qərbi Azərbaycan İcması dünya ictimaiyyətini Ermənistanın bu qeyri-insani və irqçi siyasətini pisləməsini, ona son verməsi və əhalinin təchizatına mane olmağını dayandırması üçün bu ölkəyə təzyiq etməyə çağırır".

# "Payız aylarında qiymət artımının növbəti dalğasını yaşaya bilərik"

## Natiq Cəfərli: "Ərzaq və qeyri-ərzaq məhsullarının qiyməti bahalaşıbsa, rəsmi inflyasiya ikirəqəmlidirsə, istehsalçılar da məcburi qiymət artımına getməlidirlər"

***REAL Partiyasının icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, payız fəslində qiymətlərin nə qədər arta biləcəyindən, son illər ətin qiymətinin hansı səbəbdən bahalaşmasından, ölkəmizdə dollara tələbin artmasından və əhalinin banklarda olan əmanətlərinin azalmasından danışıb.***

***- Yay aylarında bahalaşmanın stabilləşməsi müşahidə olunur. Qarşıdan isə payız fəsli gəlir. Payız aylarında qiymətlərin artacağı gözlənilirmi və daha çox hansı məhsullarda qiymət artımı qeydə alına bilər?***

-Yay aylarında qiymətlərdə sabitlik müşahidə olunub. Bu, mövsümi xarakterli dəyişikliklərlə bağlıdır. Yerli məhsulların bazara çıxması ilə qiymətlərdə sabitlik yaranır. Bu il də idxaldan asılı ölkəyik. 70-75 faiz ərzaq məhsullarını xaricdən alırıq. Xaricdəki qiymət artımı tendensiyasının tam zəifləmədiyini nəzərə alsaq, belə bir qənaətə gəlmək olar ki, Azərbaycanda payız aylarında qiymət artımının növbəti dalğasını yaşaya bilərik.

***-Son illər daha çox ətin qiymətində bahalaşma müşahidə olunur. Bu qarşıdakı dönəmdə də davam edə bilərmi və ətin qiymətindəki artım nə ilə bağlıdır?***

-Ətin qiymətinin artmasının obyektiv səbəbləri var. Son illər iribuynuzlu və xırdabuynuzlu mal-qaranın sayında azalma müşahidə olunur. Bu da yem bazasının azalması ilə bağlıdır. 2014-2017-ci illərdə çox sayda sahənin texniki bitkilərin əkilməsi üçün ayrılmasının şahidi olduq. Bu isə örüş yerlərinə və yem bazasına ciddi zərbə vurdu. Yemin bahalaşması avtomatik olaraq ətin qiymətinə təsir göstərdi. Bu əsas səbəblərdəndir. Digər səbəb isə odur ki, bu sahə ilə məşğul olan insanların özləri də istehlakçıdır. Hər bir məhsulun qiyməti qalxırsa, həmin şəxslər də öz məhsullarının qiymətini artırmaqda maraqlı olacaqlar. O baxımdan ki, onlar da artan xərclərini qarşılaya bilsinlər. Həm yemin, həm də digər ərzaq və qeyri-ərzaq məhsullarının qiyməti bahalaşıbsa, rəsmi inflyasiya ikirəqəmlidirsə, onlar da məcburi qiymət artımına gemtəlidirlər. Ona görə də ətin qiymətində artım hiss olunur.

***-Ölkəmizdə dollara tələb artıb. Belə ki, son hərraclarda rekord dollar satışı qeydə alınıb. Məlumdur ki, dollara tələbin artması idxalın çoxalması ilə də bağlıdır. Yəni, mövsümi faktorlarla bağlı olaraq idxal məhsullarına tələb artır. Belə məqamda dollara tələbin artması manatın məzənnəsinə necə təsir göstərəcək?***

-Dollara tələbin artmasının obyektiv səbəbləri var. Ötən illərin dinamikasına baxanda görürük ki, bizim idxaldan asılılığımız o qədər yüksəkdir ki, təhsil ilinə başlayanda idxal məhsullarına tələb yüksəlir. Ölkədə az qala 1,5 milyon tələbə və şagird var. Onların geyim, dəftər, çanta və s. məhsullarının böyük əksəriyyəti xaricdən gətirilir. Bu da dollara olan tələbatı artırır. Təqribən sentyabrın sonuna qədər bu tendensiyanı müşahidə edəcəyik. Oktyabr və noyabr aylarında sabitlik yaranacaq. Bir daha dekabr ayında dollara tələbatın artımını görə bilərik. Ona görə ki, Yeni il bayramı öncəsi istehlak artır və idxal mallarına tələbatın yüksəlməsinə səbəb olur. Bu da öz növbəsində dollara tələbatı yüksəldən amilə çevrilir. Yeni il qabağı qiymət artımlarının yenidən



inflyasiyanın sürətinin zəifləməsinin şahidi olduq. Yəni, yay aylarında qiymət artımında bir səngimə qeydə alındı. Həmçinin, son səkkiz ayda beynəlxalq bazarlarda ərzaq qiymətlərində ucuzlaşma görürük. Dünya bazarında bahalaşma dalğası xeyli səngiyib. Bizim də idxaldan asılı olduğumuzu nəzərə alsaq, bu hal ciddi təsir göstərib. Belə ki, idxal mallarında da müəyyən qiymət sabitliyi baş verib. Azərbaycanda əsasən noyabr ayından başlayaraq Yeni il bayramına qədər və həmin ərəfədə qiymət artımı olur. Yerli məhsulların bazardan azalmasının, idxal məhsullarının artımının da buna təsiri olur. Amma bayramlar öncəsi tələbin artmasının da rolu var. Ərzaq məhsullarının son illərdəki qiymətini analiz etsək görərik ki, noyabr-dekabr aylarında inflyasiya sürətlənir. Belə ki, ərzaq məhsullarının qiymətində artım baş verir. İndi də buna bənzər hadisələrin şahidi ola bilərik. Biz

artmasını görə bilərik. Bu hər il Novruz bayramına qədər davam edir. Ondan sonra aprel, may və iyun aylarında səngimə, yay aylarında isə sabitlik yaranır. Bu, daim belədir. Bu il də eyni mənzərənin şahidi ola bilərik.

***-Əhalinin banklarda olan əmanətlərinin azalması qeydə alınıb. Belə ki, avqustun 1-nə olan məlumata görə, ümumi əmanətlərin həcmi əvvəlki ay ilə müqayisədə 43.3 milyon manat azalaraq 12 milyard 705 milyon manata düşüb. Azərbaycanda əmanətlərin azalmasının səbəbi nədir?***

-İyul ayında ciddi şəkildə əmanətlərin azalması müşahidə olunub. Bunun da iki səbəbi var. Bu ilin əvvəlindən ertələnmiş qayda qüvvəyə mindi. Belə ki, depozitlərə 10 faizlik gəlir vergisi tətbiq olunur. Bu isə kiçik depozit sahiblərinin marağını azaldıb. Məsələn, 4-5 min manat depozitdə pulu olan şəxs 8-9 faizlə 300-400 manat pul qazanırdı. İndi isə onun 10 faizini vergi şəklində verməlidir. Bu zaman onların bir çoxu depozitlərini geri çəkdi. Digər bir səbəb isə odur ki, bir çox insanlar yay tətili üçün depozitlərindən pul çəkdilər. Bundan başqa ödənişli ali təhsil müəssisələrinə qəbul olanlar var. Çox güman ki, onların valideynləri depozitdə olan vəsaitlərindən istifadə edərək təhsil haqqını ödəmək məcburiyyətində qaldılar. Bu obyektiv səbəblər iyul ayında depozitlərin azalmasına səbəb olub. Bu dinamikanın davam edib-etməyəcəyini indidən söyləmək çətindir. Yaxın 3 ayda eyni dinamikanı müşahidə edəcəyik-sə, bu həm də o demək olacaq ki, əhalinin real gəlirləri azalır. Bu gəlirlər azaldıqca depozitdə olan vəsaitə tələb də artacaq.

***Anar Kəlbiyev***

# TƏBİB-in tabeliyindəki tibb mərkəzləri ilə bağlı SOS

## Böyük ümidlərlə yaradılan bu qurumlarla bağlı rüşvət və yeyinti iddiaları səngimir - Yeni yoxlamalar gözlənilir!

***Ötən həftə "Sumqayıt Tibb Mərkəzi" Publik Hüquqi Şəxsində baş verən qanunsuzluqlarla bağlı Maliyyə Monitorinqi Xidmətindən daxil olmuş məlumatlar əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılmış cinayət işinin istintaqı yekunlaşdı. Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən verilən məlumatda bildirilib ki, istintaqla qeyd olunan tibb müəssisəsinin sabiq baş mühasibi Gülnarə Bayramovanın həmin vəzifədə işləyərkən qohumu Gündüz Əliyevlə qabaqcadan əlbir olub tanışları Elxan Əsədovun köməkliyilə sahibkarlıq fəaliyyəti adı altında 2012-2019-cu illər ərzində keçirilmiş dövlət satınalmaları və müqavilələr üzrə xüsusilə külli miqdarda pul vəsaitlərini nağdlaşdıraraq mənimsəmələrinə əsaslı şübhələr müəyyən edilib.***



Cinayət işi materiallarına əsasən Gülnarə Bayramova və Gündüz Əliyev Elxan Əsədov vasitəsilə təsis etdiyi 41 hüquqi şəxsin qanuni fəaliyyətlə məşğul olması görüntüsü yaradaraq Sumqayıt şəhər Səhiyyə Şöbəsindən 5 milyon 716 min 684 manat məbləğində pul vəsaitini həmin şirkətlərə köçürülməsinə nail olub. Bundan sonra, köçürülmüş pul vəsaitinin bir hissəsi, yəni 1 milyon 613 min 334 manat məbləğində hissəsi Elxan Əsədov və digərləri vasitəsilə nağdlaşdırmaqla mənimsənilib.

Cinayət yolu ilə əldə edilən mənimsənilmiş pul vəsaitinin 1 milyon 35 min manat məbləğində hissəsinin müxtəlif əqdlər bağlamaqla həyata keçirilən maliyyə əməliyyatları nəticəsində ayrı-ayrı şəxslərin bank hesablarından məxaric edərək leqallaşdırması ibtidai istintaq zamanı sübuta yetirilib.

İş üzrə toplanmış mötəbər sübutlar əsasında Gülnarə Bayramova və Gündüz Əliyevə Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə), 193-1.3.2 (xeyli miqdarda cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) və digər maddələrilə, Elxan Əsədova isə həmin Məcəllənin 32.5, 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəməyə köməkçilik), 32.5, 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə etməyə köməkçilik) və digər maddələrilə yekun ittiham elan edilib. Cinayət işi baxılması üçün aidiyyəti üzrə Sumqayıt Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Bundan əvvəl, daha dəqiq desək, iyulda isə "Sabunçu Tibb Mərkəzi"nin şöbə müdiri məsuliyyətə cəlb edilmişdi. Həmin vaxt Baş Prokurorluğun Mətbuat Xidmətindən verilən məlumatda qeyd edilirdi ki, qurumun şöbə müdiri vəzifəsində işləyən Qaracayev İlqar Qaraca oğlunun qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işinin istintaqı aparılır.

Belə ki, İlqar Qaracayevin qeyd olunan vəzifədə işləyərkən hərbi xidmətə yararlı olan ayrı-ayrı çağırışçıların hərbi xidmətə yararsız hesab edilmələri barədə saxta tibbi rəylərin verilməsi müqabilində onlardan 18 min manatdan artıq məbləğdə rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış ilkin sübutlar əsasında İlqar Qaracayevə Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən istifadə etmə), 311.3.2 (təkrar rüşvət alma), 313 (vəzifə saxtakarlığı) və digər maddələrlə ittiham elan edilərək səhhəti və yaşı nəzərə alınmaqla barəsində məhkəmənin qərarı ilə ev dustaqlığı növündə qətimkan tədbiri seçilib.

Xatırladaq ki, bir müddət öncə səhiyyə sistemində həyata keçirilən islahatlar çərçivəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) tərəfindən Bakı şəhərinin rayonları üzrə 11 tibb mərkəzi yaradılmış, aparılan struktur dəyişikliyinə əsasən paytaxtda çoxprofilli stasionar və ixtisaslaşdırılmış poliklinika müvafiq ərazi üzrə tibb mərkəzlərinin tabeliyinə verilmişdi. Bundan başqa, Sumqayıt şəhər Səhiyyə Şöbəsinin bazasında yeddisi Ailə Sağlamlıq Mərkəzi və dördü şəhər xəstəxanası olmaqla 18 tibb müəssisəsindən ibarət Sumqayıt Tibb Mərkəzi yaradılmışdı. Həmçinin, sözügedən tibb mərkəzlərinin isə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində fəaliyyət göstərəcəkləri açıqlanmışdı.

İTSDA rəsmiləri bildirirdilər ki, haqqında danışılan struktur dəyişikliklərini həyata keçirməkdə əsas məqsəd Bakı və Sumqayıt şəhərləri üzrə fəaliyyət göstərən dövlət tibb müəssisələrinin fəaliyyətinin effektiv təşkili və idarəolunmasını təmin etməkdir. Lakin göründüyü kimi, qısa müddət ərzində artıq iki tibb mərkəzində ağlasığmaz qanunsuzluqlar, korrupsiya faktları aşkarlanıb, bu hallarla bağlı cinayət işləri başlanıb.

Bir sözlə, dövlət tibb müəssisələrinin fəaliyyətinin effektiv təşkili və idarəolunmasını təmin etməli olan tibb mərkəzlərində kimlərsə şəxsi maraqlarını təmin etmək yolu tutublar. Daha da dəqiqləşdirsək, struktur dəyişikliklərinin mahiyyətindən doğan yeni çağırışlara cavab vermək əvəzinə "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyi üstün tutublar. TƏBİB rəhbərliyi isə buna ya müdaxilə etmək istəməyib, ya da müdaxilə etməkdə gecikib, nəticədə məsələyə hüquq-mühafizə orqanları qarışmalı olub.

İstisna edilmir ki, yaxın vaxtlarda digər tibb mərkəzləri ilə bağlı da müvafiq yoxlamalar aparılacaq. Həmin yoxlamaların sonucunda da kimlərinsə cinayət məsuliyyətinə cəlb edilməsi istisna edilmir. Çünki Sumqayıt və Sabunçu tibb mərkəzlərindəki qüsurların əslində paytaxtın digər rayonlarındakı analoji qurumların bir çoxunda yaşandığına dair ciddi şübhələr var...

**Sənan Mirzə**



# Ombudsmandan ermənilərin Azərbaycan səfirliyinə hücumuna reaksiya

***Azərbaycanın Livandakı Səfirliyinə qarşı erməniəsilli şəxslər tərəfindən törədilən təxribatla bağlı bəyanat yayıb.***

Bu barədə "Unikal"a Ombudsman Aparatından məlumat verilib.

Qeyd edilib ki, Ermənistan tərəfindən tarix boyu Azərbaycan-türk diplomatlarına qarşı terror siyasəti həyata keçirilib, cari ildə həmin siyasətin bu gün də dəstəklənməsinin rəmzi olaraq "Nemezis" terror əməliyyatına həsr olunan abidənin açılışı keçirilib: "Bu siyasətin nəticələrindən biri kimi çıxış edən növbəti hal Livanda baş verib, 50-yə yaxın erməniəsilli şəxs Azərbaycan Respublikasının Livan Respublikasındakı səfirliyinin inzibati binası qarşısında toplaşaraq boya ilə doldurulmuş, partlayıcı bərkidilmiş şüşələri səfirliyin inzibati binasına atıb, hasarlara zərbə vurub və müxtəlif şüarlar səsləndirib.

Səfirliyin heyəti arasında xəsarət alan olmasa da, bu kimi hallar azərbaycanlı diplomatların həyat və sağlamlığına zərər vurulması məqsədilə törədilən təxribat kimi qiymətləndirilməlidir. Eyni zamanda, hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerinə gəldiyi zaman təxribatı törətmiş şəxslərin oranı tərk etməsi onlar barədə müvafiq məsuliyyət tədbirlərinin görülməsinin qarşısını almamalıdır".

Ombudsman vurğulayıb ki, beynəlxalq hüquqa əsasən, səfirlik binaları toxunulmazdır və hər hansı, müdaxilədən, zərər vurulmasından mühafizə edilməlidir:

"Hər bir dövlət diplomatik xidmət orqanlarının təhlükəsizliyinin təmini ilə bağlı zəruri tədbirləri görməlidir.

Təəssüf ki, bundan öncə də bir neçə dəfə Azərbaycanın xarici ölkələrdə yerləşən diplomatik nümayəndəliklərinə ermənilər tərəfindən hücumlar edilmiş, müxtəlif vandalizm aktları törədilib. Livandakı səfirliyimizin önündə də ötən il bu cür insident yaşanıb. Bu səbəbdən ermənilərin aksiya keçirmək adı ilə radikal hücumlarını davam etdirməsi və Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik nümayiş etdirən, ittihamyönümlü əsassız şüarlar səsləndirməklə zorakı əməllər törətməsi ciddi narahatlıq doğurur.

Bildirmək istərdim ki, Ermənistan tərəfindən azərbaycanlılara qarşı nifrət təbliğatının daha kəskin hal alması ilə bağlı dəfələrlə açıq müraciətlərimiz olub. Belə ki, bu Azərbaycanofobiya siyasətinin davam etdirilməsi Ermənistanla yanaşı, onun hüdudlarından kənarda da ermənilər tərəfindən müxtəlif formalarda Azərbaycanı hədəfə alan əməllərin törədilməsinə gətirib çıxarır.

Bu baxımdan, bütün xarici dövlətləri "Diplomatik əlaqələr haqqında" 1961-ci il tarixli Vyana Konvensiyasından irəli gələn öhdəliklərini yerinə yetirməyə, diplomatik nümayəndəliklərin hədəfə alınması hallarını qəti şəkildə pisləməyə, zəruri məsuliyyət tədbirlərinin görülməsinə dəstək verməyə çağırıram".

Qeyd edək ki, Azərbaycan Respublikasının Livan Respublikasındakı Səfirliyi qarşısında aksiya keçirən 50-yə yaxın erməniəsilli şəxslər səfirliyin inzibati binasının ətrafındakı hasara zərbələr endirib, özləri ilə gətirdikləri içərisində boya olan və partlayıcı bərkidilmiş şüşələri səfirliyin inzibati binasına atıblar.



# Ali təhsil müəssisələrinin qəbul planı neçə faiz dolub?

***Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinə qəbulun nəticələrinə dair bəzi statistik məlumatları (I mərhələdən sonra) açıqlayıb.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, müsabiqənin nəticələrinə əsasən 51 941 nəfər (o cümlədən 6592 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 24 594 (o cümlədən 1389 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 27347 (o cümlədən 5203 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Ali təhsil müəssisələrinin qəbul planı 93.94% dolub. Sentyabrın 5-dən 14-dək boş qalan plan yerlərinə ixtisas seçimi aparılacaq və göstəricilər bir qədər də yüksələcəkdir.

Qeyd olunan rəqəmləri ötən ilin müvafiq məlumatları (I mərhələdən sonra qəbulun nəticələri) ilə müqayisə etsək, bu il tələbə adını qazananların sayının daha da artmasını müşahidə edə bilərik. Ötən ilə nisbətən bu il tələbə olanların sayı 3100 nəfər daha çoxdur. Bu il dövlət sifarişi əsasında qəbul olunanların sayı da ötənilki göstəricidən 1550 nəfər çoxdur.

Ümumiyyətlə son illər qəbul planında dövlət sifarişli yerlərin sayının artırılması nəticəsində ödənişsiz oxumaq imkanı əldə edən tələbələrin sayı çoxalmaqda davam edir. Bu il ötən illə müqayisədə dövlət sifarişi üzrə 12.27% daha çox plan yeri ayrılmışdı. İxtisas qrupları üzrə ayrılıqda baxsaq bu il hətta I ixtisas qrupunda 23.30%, IV ixtisas qrupunda 15.56% artım var idi. Beləliklə, abituriyentlərin dövlət sifarişli yerlərdə oxumaq imkanları daha da genişlənib və onlar müəyyən ixtisaslar üzrə ötən illərlə müqayisədə nisbətən aşağı bal ilə də ödənişsiz oxumaq imkanına malik olurlar. Bununla bağlı gözləntilər əvvəlcədən var idi.

Xatırladaq ki, ixtisas seçimindən öncə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə tərəfindən canlı yayımlar zamanı müsabiqə vəziyyəti təhlil olunmuşdu və ixtisas qrupları üzrə abituriyentlərin topladıqları ballara əsasən şansları qiymətləndirilmişdir. Müsabiqənin nəticələrinə fikir verdikdə qrup və ixtisaslar üzrə vəziyyətin necə formalaşacağı ilə bağlı proqnozların özünü doğrultduğunu görə bilərik.

Plan yerləri ən çox ikinci ixtisas qrupunda dolub (98.35%). Burada plan yerlərinin sayı imtahan verən və müsabiqədə iştirak etmək hüququ olan abituriyentlərin sayından çox olsa da, əvvəlcədən də proqnoz edildiyi kimi subbakalavrların şansı var idi və onların hesabına dolma göstəriciləri yüksəkdir. Ən çox subbakalavr (2985 nəfər) da məhz II qrup üzrə ixtisaslara qəbul olunub. I qrup üzrə də subbakalavrların imkanları var idi və 2731 nəfər qəbul olunub. III, IV və V ixtisas qruplarında plan yerləri müvafiq olaraq 93.74%, 94.36% və 91.19% dolub.

Məlumat üçün qeyd edək ki, I mərhələdən sonra I ixtisas qrupu üzrə 1557, II ixtisas qrupu üzrə 217, III ixtisas qrupu üzrə 994, IV ixtisas qrupu üzrə 231, V ixtisas qrupu üzrə isə 350 plan yeri boş qalıb.

Ayrıca ali təhsil müəssisələrinə gəldikdə I mərhələdən sonra tələbə qəbulu aparılan 42 ali təhsil müəssisəsinin 6-da (Tibb Universiteti, Dövlət İdarəçilik Akademiyası, ADA Universiteti, Turizm və Menecment Universiteti, Bakı Ali Neft Məktəbi, Əmək və Sosial Münasibətlər Akademiyası) plan yerləri 100 %, 23 ali təhsil müəssisəsində 90%-dən çox dolub. Ümumiyyətlə, qəbul aparılan ixtisasları xüsusi qabiliyyət tələb edən ali təhsil müəssisələri istisna olmaqla, digər ali təhsil müəssisələrinin plan yerləri əsasən 80%-dən çox dolub.

Subbakalavrlarla bağlı qeyd edə bilərik ki, onlar 34 müxtəlif ali təhsil müəssisəsinə qəbul oluna biliblər. Bu il ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların sayı da artıb və ötənilki göstəricidən 1665 nəfər daha çoxdur. Subbakalavrlar say etibarilə daha çox Mingəçevir Dövlət Universiteti (586 nəfər) Azərbaycan Texniki Universitetinə (490 nəfər), Lənkəran Dövlət Universitetinə (453 nəfər) və Azərbaycan Texnologiya Universitetinə (432 nəfər) qəbul olunub. Ali təhsil müəssisələrinin qəbul planı və onların dolma faizinə baxdıqda isə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasına qəbul olunanların 54.10%-nin, Naxçıvan Müəllimlər İnstituna qəbul olunanların 51.03%-nin, Azərbaycan Texnologiya Universitetinə qəbul olunanların 41.10%-nin subbakalavrlar olduğunu görərik.

Xatırladaq ki, ali təhsil müəssisələrinə qəbul olunanlar sentyabrın 5-dən 14-dək elektron qaydada portal.edu.az saytı vasitəsilə qeydiyyatdan keçməlidirlər. Müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri ali məktəbə göndərilməyəcək.

# Alimpaşa Məmmədovun gözdən iraq olan milyonluq biznesi

## Həbsdəki sabiq icra başçısının daha bir gəlir qaynağı ortaya çıxdı

***Şəmkir rayon İcra Hakimiyyətinin hazırda həbsdə olan keçmiş başçısı Alimpaşa Məmmədovun çoxşaxəli biznesi barədə həm o, vəzifədə ikən, həm də "vurulduqdan" sonra mediada çoxsaylı materiallar dərc olunub. Bir müddət əvvəl isə sabiq başçının nəzarətindəki gəlir qaynaqlarının bir çoxunu itirdiyi iddia edilib.***

Bununla belə, A.Məmmədovun "biznes imperiyası" barədə danışılarkən hələ də geniş ictimaiyyətə məlum olmayan məqamlar ortaya çıxıb. Söhbət onun Ceyrançöl ərazisində böyük torpaq sahələrinə yiyələnməsindən və həmin ərazilərdə kənd təsərrüfatı yönümlü sahibkarlıq fəaliyyəti yaratmasından gedir.

Qeyd edək ki, hələ A.Məmmədovun işinə Gəncə Ağır Cinayətlər Məhkəməsində baxılarkən ilginc nüanslara toxunulmuşdu. Belə ki, məhkəmə iclaslarından birində aydınlaşmışdı ki, Alimpaşa Məmmədov tərəfindən Mənzil-Kommunal İstismar İdarəsinin rəisi təyin edilən Teymur Hacıyev sürücü qismində siyahıda 10 əvəzinə, 19 sürücü göstərilib. Beləliklə hər il say süni şəkildə artırılıb. Nəticə etibarı ilə təkcə bu epizod üzrə dövlət büdcəsinə 71 min manat ziyan vurulub. Bundan əlavə texnikaların nəzərdə tutulan ərazilərdə işləməməsi, daha dəqiq desək, Şəmkir rayonuna aid olmayan Ceyrançöl ərazisində istifadə edilməsi kimi faktlar da ortaya çıxmışdı. Teymur Hacıyev isə belə bir göstərişi hazırda İcra Hakimiyyəti başçısının köməkçisi işləyən Mahir Əliyevdən aldığını demişdi.

Bəs haqqında danışılan texnikaların Şəmkir rayonuna dəxli olmayan Ceyrançöl ərazisində istifadə edilməsinin səbəbi nə olub?

Bununla bağlı araşdırmalar zamanı aydınlaşıb ki, A.Məmmədov icra başçısı postunda ikən Şəmkir Bələdiyyəsi "Ceyrançöl" MMC adlı MMC təsis edib. Əslində isə bu şirkət keçmiş icra başçısının əli ilə yaradılıb və faktiki şəkildə bitkiçiliklə, taxılçılıqla məşğul imiş. Bir sözlə, Alimpaşa müəllimin aqrar biznesinin aparıcı qolunu təşkil edən MMC Ceyrançöl ərazisində iri torpaq sahələrini icarəyə götürüb.



A.Məmmədova yaxın şəxslərin 2016-cı ildə Ceyrançöldə 670 hektar sahəyə çuğundur əkdiyi və 114 min ton şəkər çuğunduru əldə etdikləri deyilir.

Sabiq başçının "Ceyrançöl" MMC tərəfindən əkilən min hektarlarla torpaq sahəsinin suvarılması üçün Kür çayından 9 km-lik məsafədə 730-luq boru ilə su kanalı çəkdirdiyi də deyilir. Həmin vaxt bildirilib ki, bu kanal rayonun daxili imkanları hesabına çəkilir. Lakin söhbətin konkret olaraq hansı daxili imkanlardan getdiyi açıqlanmayıb.

Onu da deyək ki, Şəmkirin sabiq rəhbəri hələ vəzifədə olarkən onun Ceyrançöldəki böyük örüş sahələrini ələ keçirdiyinə dair yerli KİV-də şikayətlər dərc olunub. Həmin şikayətlərdən belə aydınlaşıb ki, A.Məmmədov faktiki olaraq Ceyrançöldəki örüş sahələrini özünə yaxın şəxslərin adlarına özəlləşdirib, sözügedən ərazilərdə isə dövlətdən kənd təsərrüfatının inkişafı üçün subsidiyalar alıb, onun hesabına taxıl əkdirib. "Hərçənd ki, yararsız torpaq olan bu ərazilər örüş üçün nəzərdə tutulub, ona görə taxıl heç düz-əməlli yetişmir. İntəhası, A.Məmmədov dövlətin pulunu subsidiya şəklində alaraq taxıl biznesində batırıb. Əvəzində isə əsl əkin-biçin sahələri su üzünə həsrət qalıb. Sakinlər şikayətlənirlər ki, örüş sahələri fermerlərə qaytarılmalıdır. "Ceyrançöldə mal-heyvan otarmağa yer tapmırıq. Alimpaşa Məmmədov imkan vermir ki, heyvanları gətirək. Axı bu torpaqlar taxıl əkmək üçün deyil. Bunu izah edən yoxdur, bizim sözümüzü də eşitmirlər", - deyə fermerlər gileylənibiər.

Onu da deyək ki, vəzifəsini itirib həbs olunandan sonra sabiq icra başçısının vaxtilə Ceyrançöldə qurduğu aqrar biznesinin aqibəti ilə bağlı hər hansı məlumat yoxdur. İstisna deyil ki, həmin təsərrüfatlar da artıq A.Məmmədova yaxın şəxslərin nəzarətində deyil.

Xatırladaq ki, Şəmkir rayonunun sabiq icra başçısı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində həbs olunub. Onun barəsində Cinayət Məcəlləsinin (mənimsəmə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma, vəzifə səlahiyyətlərindən sui-istifadə, 311.3.2 və təkrar, külli miqdarda rüşvət alma maddələri ilə ittiham irəli sürülüb və məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Onu da deyək ki, A.Məmmədov 2014-2021-ci illərdə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işləyib. Həmin vaxtadək isə o, vergi orqanlarında bir sıra vəzifələrdə çalışıb, habelə 2011-2014-cü illərdə Bakı şəhər Vergilər Departamentinin rəisi kimi fəaliyyət göstərib.

A.Məmmədov vergi sistemində işləyərkən o vaxtkı Vergilər naziri, mərhum Fazil Məmmədova yaxın kadr kimi tanınıb və iddialara görə məhz onun səyləri nəticəsində kurasiya etdiyi Şəmkir rayonunun rəhbərliyinə gətirilib.

***Toğrul Əliyev***

# "Toy oliqarxları"ndan yeni bahalaşma qərarı

## Qiymətləri süni şəkildə artıranların siyahısına onlar da qoşuldu - ŞOK TƏFƏRRÜATLAR...

***Sentyabrın 16-dan səfər ayı bitir. Artıq buna baxmayaraq restoran və şadlıq saraylarında boş yerlər qalmayıb. Lakin qiymətlər heç də hamını qane etmir.***

Yerli media xəbər verir ki, son aylar müşahidə edilən qiymət artımı restoranlardan da yan ötüşməyib.Belə ki, Məhərrəm ayından əvvəl təklif edilən 35 manatlıq menyu 40-45 manat, 50 manatlıq menyu isə 55-60 manata təklif edilir.

Restoran inzibatçıları bildiriblər ki, bazarda olan qiymət artımı restoranlarda menyunun bahalaşmasına səbəb olub.

Ekspertlər isə şadlıq evlərinin bu il ərzində ikinci dəfə qiymətləri ciddi şəkildə bahalaşdırmasını anormal sayırlar. "Hələ bu ilin fevral-mart aylarında Bakıdakı restoran və şadlıq evlərinin menyularında kəskin bahalaşma olduğu müşahidə edilməyə başlandı. Həmin vaxt araşdırmalar göstərirdi ki, toyxanaların menyularında qiymətlər 5-10, bəzilərində isə hətta 15-20 manat civarında bahalaşdırılıb" deyən ekspertlərin sözlərinə görə, həmin vaxt da bu qiymət artımı ərzaq məhsullarının bahalaşması ilə izah olunurdu. Lakin mütəxəssislər sözügedən arqumenti yetərli saymırlar. Onlar bildirirlər ki, şadlıq evləri qiymətləri yüksəldirlərsə bu avtomatik olaraq keyfiyyətin də yüksəlməsi ilə müşahidə olunmalıdır. "Lakin toyxanalarda verilən yeməklərin, içkilərin keyfiyyəti hələ də ürəkaçan deyil. Bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin vaxtaşırı keçirdiyi yoxlamalar da təsdiqləyir. Həmin yoxlamalar zamanı şadlıq evlərində qida təhlükəsizliyi tələblərinə riayət edilmədiyi üzə çıxır. Uzağa getməyək, təxminən bir ay öncə Agentlik əməkdaşları tərəfindən Binəqədi rayonu, H.Əliyev küçəsi, 3024-cü məhəllədə fəaliyyət göstərən fiziki şəxs Əliyev Təmkin Rəhim oğluna məxsus "Yeganə Palace" şadlıq sarayında keçirilmiş plandankənar yoxlama zamanı tükürpədici faktlar aşkarlanmışdı, qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinin pozulduğu müəyyən olunmuşdu. Belə ki, yoxlama zamanı müəssisədə müvafiq sənədləri olmayan, üzərində aşkar saxtakarlıq əlamətləri olan 27 ədəd 0,7 litrlik "Kremlin" əmtəə nişanlı, 4 ədəd 0,7 litrlik "Severnaə stoliüa" əmtəə nişanlı, 5 ədəd 1 litrlik "Beluga" əmtəə nişanlı, 14 ədəd 0,7 litrlik "Bulbaşc" əmtəə nişanlı, 79 ədəd 0,7 litrlik "Mcnskc" əmtəə nişanlı, 21 ədəd 0,7 litrlik "Boss" əmtəə nişanlı, 32 ədəd 0,7 litrlik "Almaz" əmtəə nişanlı, 7 ədəd 0,7 litrlik "Chivas Regal" və 12 ədəd 0,5 litrlik "Chivas Regal" əmtəə nişanlı spirtli içkilər aşkarlanmışdı. Eyni zamanda mənşəyi məlum olmayan, orqanoleptik görünüşündə qaralma və istehlaka yararsız 24 kq sub məhsulu (qaraciyər, bağırsaq və s.), 19,8 kq balıq məhsulu, 80 kq piy və 250 kq ət, həmçinin çəkisi 20 kq olan son istifadə tarixi bitmiş "kartof fri" məhsulu aşkar edilmişdi. Bundan əlavə, müəssisənin sanitar-texniki və sanitar-gigiyenik vəziyyətinin qənaətbəxş olmadığı, dondurucularda istifadə müddəti bitmiş məhsullarla istehlaka yararlı məhsulların bir arada saxlanıldığı, işçi heyətin ilkin və dövri tibbi müəyinədən keçmədiyi müəyyənləşdirilmişdi. İnanın ki, əksər şadlıq evlərində eyni mənzərə hökm sürür. Yaxşı, "toy oliqarxları" qiymətləri bahalaşdırmağı bacarırlar, bəs onda niyə camaata keyfiyyətli qidalar, ərzaqlar, içkilər təqdim etmirlər? Zəhmət çəksinlər, öncə qida təhlükəsizliyi normalarına, tələblərinə əməl eləsinlər, sonra bahalaşmaya getsinlər".



Eyni zamanda o da ilgincdir ki, şadlıq evləri, az qala, 4-5 ayda bir dəfə qiymətləri bahalaşdırdıqları halda təklif olunan menyularda dəyişiklik yoxdur. Bir az da dəqiqləşdirsək, menyular nəinki zənginləşmir, əksinə, getdikcə zəifləyir. Bu da onu göstərir ki, "toy oliqarxlarının" qiymət artımını yalnız obyektiv səbəblərlə - ərzaq bazarındakı qiymət artımı ilə izah eləmək mümkün deyil, ortada xeyli subyektiv səbəb də var, yəni bahalaşma bir az da süni xarakter daşıyır və şadlıq evləri sahiblərinin getdikcə daha çox qazanmasına xidmət edir.

Ekspertlər onu da bildirirlər ki, şadlıq evlərindəki qiymət artımı fonunda xidmətin keyfiyyəti də ürəkaçan deyil: "Hələ də əksər şadlıq sarayları qeyri-peşəkar personalara malikdirlər, çünki professional ofisiantlar və s. işə cəlb etmək istəmirlər, buna görə daha yüksək əməkhaqqı ödəməli olduqlarını bildikləri üçün aztəminatlı insanları az qala qul kimi işlədirlər. Gedib araşdıraq görək, son 1 ildə şadlıq evlərində çalışanların maaşları, günəmuzdları nə qədər artıb? Aydın olacaq ki, bu artımdan söhbət belə getmir. Halbuki son 1 ildə "toy oliqarxları" ən azı 2-3 dəfə qiymətləri bahalaşdırıblar. Bu bahalaşmadan da həmişəki kimi yalnız özləri "qaz vurub qazan doldurublar"".

Mütəxəssislər maraqlı bir məqama da diqqət çəkirlər. Onların fikrincə, şadlıq evləri tərəfindən qiymətin sanki sözləşiblərmiş kimi hər dəfə eyni vaxtda bahalaşdırılması onların bir neçə əldən idarə edildiyini, bir-birləri ilə əlaqəli olduğunu göstərir. Yəni, bu cür qiymət artımları faktiki olaraq karter sövdələşməsi nəticəsində bahalaşmadan xəbər verir...

***Sənan Mirzə***



# Deputatdan səfirliyimizə hücum edən ermənilərə etiraz

***"Ermənilərin Livandakı Azərbaycan səfirliyinə hücumu erməni terorunun bir dəsti xəttidir".***

Bunu Bakıvaxtı.az-a açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Arzu Nağıyev bir qrup ermənininin Azərbaycan Respublikasının Livan Respublikasındakı Səfirliyinə hücumunu şərh edərkən bildirib.

O qeyd edib ki, səfirliyimizə edilən hücumda müxtəlif terror təşkilatları tərəfindən maliyyələşən qruplaşmalar iştirak edib: "Bu, bizim diplomatik korpusa edilən ilk hücum deyil. 44 günlük Vətən müharibəsindən sonra ermənilər və onların havadarları tərəfindən dəfələrlə bizim səfirliklərə hücum edilib, terror aktı törədilib. Bu o deməkdir ki, ermənilər diplomatik münasibətlərə, o cümlədən beynəlxalq qanunlara məhəl qoymur. Bunun da əsas səbəbi ermənilərin cəzasız qalmasıdır. Əgər həmin dövlətlər səfirliyə hücum edənləri ciddi şəkildə cəzalandırsaydılar, səfirliklərə hücumlar davamlı olmazdır".

Deputat deyib ki, hər bir səfirliyin təhlükəsizliyinə yerləşdiyi ölkənin xüsusi xidmət orqanları və mühafizə xidmətləri cavabdehdir: "Onlar öncə öz vəzifəsini yüksək səviyyədə yerinə yetirməlidirlər. Buna imkan yaradan qruplaşamalar və özlərinin Ermənistanın dostu adlandıran dövlətlər birmənmalı şəkildə demokratiyanın təbliğatı ilə bağlı bəyanatlarla yadda qaldılar. Səfirliyimizə hücumlar həm Avropada, həm də digər ərazilərdə baş verir".

A.Nağıyev bildirib ki, Livandakı səfirliyimizə hücumla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi nota verib və onların cəzalandırılmasını tələb edib: "Dəyən ziyanla bağlı hüquq mühafizə orqanları tərəfindən cinayət işi açılacaq. Bu məsələ ciddi araşdırılmalıdır. Hücuma məruz qalan səfirliklərin yerləşdiyi ölkələr də bu hadisələrin arxasında duranları araşdırmalıdır. Əks halda dövlətlərarası münasibətin zəifləməsinə və gərginliyə səbəb ola bilər.

Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan və onun havadarları bölgədə sülhün olmasını istəyirlər. Onların məqsədi bölgədə konfiliktin olmasını və vəziyyətdən özlərinin yararlanmaqdır. Azərbaycan daxili və xarici siyasətini, öz suverenliyini, dövlət müstəqilliyini və ərazi bütövlüyünü bütün qanunlara uyğun olaraq qorumalıdır".

# "Qırmızı Xaç" avqustda 85 xəstəni Ermənistana apardı




***Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) avqust ayında da tibbi ehtiyacları olan şəxslərin Laçın yolu ilə keçərək Ermənistana təxliyəsini həyata keçirib.***

Bunu BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova bildirib.

"Bu ay biz humanitar neytral vasitəçi rolunda çıxış edərək, 85 nəfər xəstənin və onların ailə üzvlərinin təxliyə olmasına yardımçı olmuşuq",- deyə o qeyd edib.




# "Azərbaycanda "TikTok"un bağlanma təhlükəsi ola bilər" - Açıqlama

***Xəbər verdiyimiz kimi, Qırğızıstanda "TikTok"un fəaliyyətinin dayandırılması ilə bağlı qərar verilib. Bundan əvvəl isə Hindistan, İndoneziya və başqa bir neçə ölkə adıçəkilən sosial şəbəkənin fəaliyyətinin dayandırılması ilə bağlı qərar qəbul ediblər. Norveç, Avstriya, Belçika, Fransa, Danimarka və digər bir neçə Avropa ölkəsi hökumət nümayəndələrinin "TikTok"dan istifadəsini qadağan edib. Bəzi ölkələrdə isə hökumət rəsmilərinə bu sosial şəbəkədən istifadə etməmək tövsiyə olunub.***

Bəs görəsən, Azərbaycanda "TikTok"un istifadəsi qadağan oluna bilərmi?

İKT üzrə ekspert Elvin Abbasov "Unikal"a bildirib ki, hər bir sosial şəbəkə özünəməxsus yeniliklə çıxış edir və onu digər sosial şəbəkələrdən fərqləndirəm amillər olur. Onun sözlərinə görə, bu yanaşmalarına görə də həmin sosial şəbəkənin seqmenti formalaşır:

""TikTok" təəssüflər olsun ki, Azərbaycanda özünün təyinatına uyğun seqment əldə edə bilmir. Təbii ki, hər bir sosial şəbəkənin ölkəyə faydası onun içindəki faydalı kontentdir. Hər bir sosial şəbəkədə insanların maraqlarını əhatə edən faydalı kontent olmalıdır. "TikTok"la bağlı əsas məqam ondan ibarətdir ki, bu sosial şəbəkə maraqlı kontentin yaradılması istiqamətində Azərbaycanda, ümumiyyətlə, Qafqazda tam olaraq özünü göstərə bilmir. Hətta ölkəmiz üzrə 10 faiz faydalı kontent olduğuna şübhə edirəm. Daha çox faydasız kontent, işlər və məlumatlar, həmçinin, cəmiyyətə zərərverən hallar baş verir. "TikTok"un alqoritmi icazə verir ki, heç bir işi-gücü, biliyi olmayan insanlar orada müxtəlif cəlbedici hərəkətlər edərək insanlar tərəfindən rəğbət qazansınlar və ona hədiyyələr atılsın. Heç bir savadı olmayan insan orada məşhurlaşır və pul qazanır. Düşünürəm ki, bu bir ölkənin təhsilinə və gələcəyinə vurulmuş zərbədir. Belə ki, heç bir biliyi, işi olmayan ora daxil olur, bir-birilərini təhqir edərək və ya qeyri-etik hərəkətlər etməklə yarışırlar, insanlar isə onlara hədiyyələr atır. Sonradan həmin hədiyyəni pula çevirərək maddi qazanc əldə edirlər. Bu, qəbuledilməzdir və başa düşülən deyil".

Ekspert qeyd edib ki, bir neçə səbəbdən Qırğızıstan və başqa ölkələrdə "TikTok"a məhdudiyyət tətbiq edilir və ya edilməsi müzakirə olunur: "Heç bir faydalı kontentin formalaşmadığı sosial şəbəkənin ölkəyə bir neçə istiqamətdə ancaq ziyanı ola bilər. Biz sosial şəbəkələrin, eləcə də "TikTok"un bağlanmasının tərəfdarı deyilik. Azərbaycan daha çox internet resurslarına əlçatanlıq üçün iş aparılır. Amma "TikTok" regionumuzda, eləcə də Azərbaycanda insanların faydalı kontent formalaşdırmasında, maarifləndirici işlər görməsi üçün daha çox iş aparmalıdır. "TikTok" ölkənin təhsilinə, milli-mentalitetinə mənfi təsir göstərməli deyil. Təbii ki, ifrat dərəcədə ziyanlar olsa, cəmiyyət özü bu şəbəkənin bağlanmasını istəyəcək. Belə halda Azərbaycanda da bağlanma təhlükəsi ola bilər.

Buna görə də "TikTok"a tövsiyə olunur ki, Azərbaycanda insanların faydalı kontentləri formalaşdırması üçün sosial tədbirlər, layihələr həyata keçirsin. İnsanlar "TikTok"u təyinatı üzrə və faydalı məlumat əsasında istifadə etsinlər. "TikTok"un hazırkı alqoritmi savadı olmayan insanların orada qeyri-etik hərkət etməsi ilə onlara pul qazandırırsa və cəmiyyətdə bu tip insanları tanınmış şəxsə çevirirsə, təbii ki, "TikTok" ölkəmizin təhsilinə, cəmiyyətin əxlaqına zərər vermiş olacaq. Ümid edirik ki, "Tik- Tok" Azərbaycanda düzgün siyasət aparacaq, cəmiyyətə mənfi təsirinin və reputasiyasının düzəldilməsində ciddi işlər aparacaq, ölkəmizdə daha faydalı fəaliyyət aparması üçün sosial layihələr həyata keçirəcək".

***Anar Kəlbiyev***

# İsmayıl Vəliyevin bəzi əmlakları satışa çıxarılır

## Həbsdəki sabiq icra başçısının 3 mülkünə 295 min manat qiymət qoyulub



***Neftçala rayonunun hazırda həbsdə olan keçmiş icra başçısı İsmayıl Vəliyevdən yeni xəbər var. Belə ki, ona məxsus olan əmlakların bir hissəsi satışa çıxarılıb.***

Bir az da dəqiqləşdirsək, Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) sentyabrın 22-də dövlət xeyrinə müsadirə edilmiş şəxsi əmlakın satışı üzrə hərrac elan edib. Onların arasında 2020-ci ildən həbsdə olan İ.Vəliyevin 2022-ci ildə məhkəmənin qərarı ilə müsadirə olunan əmlakının bir hissəsi də var.

ƏMDX-nin məlumatına əsasən, Qobustan rayonunda yerləşən 3 mülk hərracda satılacaq. Obyektlərin ümumi ilkin dəyəri 295 000 manat (173 500 ABŞ dolları) qiymətləndirilib. Bunlar 243,3 m2 sahəsi olan qeyri-yaşayış sahələri, 151,5 m2 sahəsi olan fərdi yaşayış evi və 2 302,1 m2 əmlak kompleksidir.

Düzdür, adıçəkilən Dövlət Xidmətinin hərracla bağlı açıqlamasında bu əmlakın keçmiş məmura aidiyyəti olması qeyd olunmur. Lakin keçmiş məmurların müsadirə olunan daşınmaz əmlakının siyahısı ilə bağlı mətbuatda gedən yazıların təhlilindən sözügedən hərraca çıxarılan 3 mülkün Neftçala Rayon İcra Hakimiyyətinin keçmiş başçısına məxsusluğu aydın olub.

Qeyd edək ki, İsmayıl Vəliyevin ümumilikdə 2 əmlakı dövlətin xeyrinə müsadirə edilib. Bunlar aşağıdakılardır:

Bakı şəhəri, Səbail rayonu, Mətbuat prospekti, ev 2 B, mənzil 32; Gəncə şəhəri, Nizami rayonu, Fətəli Xan Xoyski küçəsi, 62 ünvanında yerləşən fərdi yaşayış evi; Bakı şəhəri, Yasamal rayonu, Hüseyn Cavid prospekti, 535-ci məhəllədə yerləşən qeyri-yaşayış sahəsi; Bakı şəhəri, Yasamal rayonu, Qurban Xəlilov küçəsi ev 6, mənzil 45; Bakı şəhəri, Yasamal rayonu, Qurban Xəlilov küçəsi ev 6, mənzil 44; Bakı şəhəri, Yasamal rayonu, Qurban Xəlilov küçəsi ev 6, mənzil 2; Qobustan rayonu, Mərəzə qəsəbəsi, Şikar Şikarov küçəsi, 0.12 ha torpaq sahəsində yerləşən 1 və 2 mərtəbəli, 6 otaqlı 151.5 kv.m yaşayış, 306.6 kv.m köməkçi sahədən ibarət 136 nömrəli fərdi yaşayış evi; Qobustan rayonu, Xilmilli kəndində 3.69 ha torpaq sahəsində yerləşən 2302.1 kv.m ümumi, 2302.1 kv.m əsas sahədən ibarət əmlak kompleksi kimi müəssisə (Xırman binası); Qobustan rayonu, Mərəzə qəsəbəsi, 0.1025 ha torpaq sahəsində yerləşən 7 girişli, 234.3 kv.m ümumi, 234.3 kv.m əsas sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası.

Həmçinin "Neftçala Taxıl" ASC-nin xüsusi mülkiyyətində olan və Neftçala şəhəri, M.Ə.Sabir küçəsi 341A ünvanında yerləşən Əmlak Kompleksi kimi müəssisə, Neftçala şəhəri, M.Ə.Sabir küçəsində yerləşən ümumi sahəsi 3800 kv.m olan "Yurdum" adlı ictimai iaşə obyekti və Neftçala şəhəri, M.Ə.Sabir küçəsində yerləşən 3800 kv.m əraziyə bitişik 1600 kv.m torpaq sahəsi və üzərindəki tikili də həbsdəki sabiq icra başçısının müsadirə olunan əmlakları siyahısındadır.

Xatırladaq ki, İsmayıl Vəliyev Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən 2020-ci ilin fevralında həbs edilib. Toplanılmış materiallarla onun mütəmadi olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib təhsil, səhiyyə və digər yerli dövlət təsisatları rəhbərlərindən müxtəlif adlar altında şəxsən pul vəsaitləri tələb edərək almasına, tabeçiliyində olan vəzifəli şəxslər vasitəsi ilə rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, sabiq başçının təmir-tikinti, abadlıq işlərinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin nağdlaşdıraraq mənimsədiyi, vəzifə səlahiyyətlərindən sui-istifadə edilməklə rayon ərazisində torpaq sahələrinin özbaşına tutulduğu, qanunsuz olaraq şəxsi məqsədlər üçün istifadə edildiyi, həmin ərazilərdə qanunsuz tikinti işləri aparıldığı, həmçinin, dövlət qayğısı ilə əhatə olunmuş işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün onlara məxsus əməkhaqqı kartlarının İsmayıl Vəliyev tərəfindən müxtəlif adlar altında ələ keçirildiyi məlum olub.

Nəticədə Neftçala RİH-in keçmiş rəhbəri 2021-ci ilin oktyabrında 10 il müddətinə azadlıqdan məhrum edilib.

İ.Vəliyevin dövlət xeyrinə müsadirə edilmiş digər şəxsi əmlaklarının da hərraca çıxarılacağı istisna olunmur.

***Toğrul Əliyev***

## 5.3.7. işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Laçın yenidən qurulur - “Böyük Qayıdış”ın Zabuxda ilk addımları



***Bu günlərdə Laçında Laçın Şəhər Günü qeyd olundu. Laçınlılar nəhayət 30 ildən sonra bu möhtəşəm günü öz doğma yurdlarında, Laçında qeyd etdilər. Zəngilanın Ağalı kəndindən sonra Laçının dirçəldilməsi, yenidən qurulması işğaldan azad edilmiş torpaqlarımızda yeni həyatın başlanğıcı oldu.***

Ötən həftə Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən Laçın rayonunun Zabux kəndinə yola salınan ilk köç karvanı ünvana çatdı. Yeni köçürülən ailələrə mənzillərin açarlarının təqdimat mərasimi keçirildi. Dövlət Komitəsində keçirilən püşkatma zamanı köçürülməsi müəyyənləşdirilən sakinlərə mənzillərin açarları təqdim olundu. Zabuxlular hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür etdilər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər. Köçürülən ailələr Zabux kəndində yenidən tikilən evlərdə məskunlaşıb. Bu mərhələdə Zabux kəndinə 20 ailə - 88 nəfər köçürülüb. Yaxın günlərdə sakinlərin kəndə köçürülməsi davam edəcək.

30 ildən sonra Zabuxa yenidən qayıdan, ata-baba ocağının işığını yandıranlardan biri də, Allahverdi Əliyevdir. A. Əliyev illərdir doğma yurd həsrəti, laçın həsrəti ilə yaşadığını söyləyir. Onun sözlərinə görə, 36 yaşında tərk etdiyi Laçına 67 yaşında geri qayıtmaq nəsib olub.

“Laçın bu 30 ildə bir gün belə yadımdan çıxmayıb. Ağacdan bir armud dərib yeyəndə də Laçını, oradakı həyətimizi xatırlamışam. Zabux boşaldılanda qurban kəsmişəm. Düzdür, düşmən Zabuxun altını-üstünə çevirmişdi. Məzarlıqlarımıza qarşı vandal hərəkətlər edərək şumlayıb üstündə evlər tikmişdilər. Amma sağ olsun prezidentimiz ki, onlardan Zabuxda bir nişanə qoymadı. Bütün evləri söküb yerində zabuxlular üçün yeni evlər inşa etdirdi. Bundan sonra qalan ömrümü öz doğma torpağımda yaşayacağam. Bundan böyük xöşbəxtlik ola bilməz. Biz illərdir bu günün həsrəti ilə yaşamışıq”.

Mübariz Rüstəmov da artıq Laçının Zabux kəndində yaşayır. Həmsöhbətimiz deyir ki, Zabuxun hər qarışı üçün illərdir həsrətlə yaşayıb. “Böyük Qayıdış” proqramı çərçivəsində yenidən öz kəndində yaşayan M. Rüstəmov yaşadığı hissi sözlə ifadə edə bilmədiyini söyləyir: “Məndən zəng edib burada havanı soruşan olanda ürəyim “dağa dönür” . Laçında uşaqlığım, gəncliyim keçib. Bütün xatirələrim Laçınla, Zabuxla bağlıdır. Mən buradan uzaqda sözün əsl mənasında yaşaya bilmirdim. Zabuxsuz keçən günlərimi ömrümdən saymıram. Elə bil o illəri heç yaşamamışam. Torpaqlarımız işğaldan azad ediləndə çox sevinmişdim, amma bir az qəhərləndim ki, Zabuxun adı çəkilmədi. Sağ olsun, Ali Baş Komandanımız İlham Əliyev bizə müjdə verdi ki, ermənilərə torpağımızdan çıxmaq üçün vaxt verib. Bax o gün gözümdən iki gilə yaş gəldi. Bu illərdir həsrətlə gözlədiyim sevincin yaşı idi. Ermənilər Laçını, Zabuxu viran qoysalar da, biz bu yurdu yenidən dirçəldəcəyik. Amma gərək dünya da bu vəhşiliyə göz yummaya. Bizi 32 il öz torpağımızdan didərgin saldılar. Təəssüf ki, dünya bu işğala göz yumdu. Yenə şükür ki, biz öz torpaqlarımızı azad etdik. Bundan sonra prezidentimizin sayəsində şəhərlərimiz, kəndlərimiz yenidən salınacaq, qurulacaq. Buna görə Ali Baş Komandana təşəkkür edirəm”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Laçın rayonunun Zabux kənd sakinləri ilə görüşündə də işğaldan azad edilmiş kənd və şəhərlərin yenidən qurulacağını, Böyük Qayıdış proqramına əsasən bu torpaqlara mərhələli köçün təmin olunacağını söyləyib.

”İndi də Ermənistanın bəzi xarici havadarları bunu görmək istəmirlər. Sanki bu işğal olmayıb, sanki bu vəhşilik, düşmənçilik olmayıb. Otuz il ağzına su alıb susanlar, yaxud da ki, erməni işğalına bəraət qazandıranlar, indi gəlib bizə qarşı iddia qaldırırlar, irad tuturlar, ittiham edirlər” deyə prezident vurğulayıb: “Biz qurub-yaradan xalqıq. Ermənin otuz il dağıtdığını biz iki ilə artıq qururuq, qurmuşuq, insanlar qayıdıblar. Biz öz torpağımızdayıq. Bura da əzəli Azərbaycan torpağı olub. İşğal dövründə hansı eybəcər ad verirsən-ver, onun əhəmiyyəti yoxdur. O ad da onların başına dəydi, elə onlarla da cəhənnəmə getdi”.

Qeyd edək ki, indiyədək Laçın rayonunda 254 ailənin, yəni 992 nəfərin daimi məskunlaşması təmin edilib. Xatırladaq ki, Laçın rayonunun Zabux kəndi 2022-ci ilin avqustun 26-da erməni işğalından azad olunub və Azərbaycan Ordusunun nəzarətinə keçib. Onu da yada salaq ki, Prezident İlham Əliyev avqustun 12-də Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində söyləmişdi ki, Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış insanlar çıxarılmalıdır: ”Bu təbiidir. Onların orada qalması, əslində, hərbi cinayətdir. Çünki o, Cenevrə konvensiyalarının qaydalarına ziddir. İşğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz. Bu, hərbi cinayətdir. Bəlkə də orada yaşayanlar Suriyadan, Livandan gəlmiş ermənilər bunu bilmirlər, amma Ermənistan rəhbərliyi bunu yaxşı bilir. Ona görə oradan bəzi xəbərlər gəlir, biri deyir ki, mən çıxmayacağam, o biri deyir ki, mən çıxmayacağam. Özləri bilər. Onlar hərbi cinayətkardırlar. Yenə də bizi, bizim səbrimizi sınağa çəkməsinlər. Öz xoşu ilə oradan çıxıb getsinlər. Haraya gedirlər bizi maraqlandırmır”.

***Gülayə Mecid***



## Bu il universitetə qəbul olan şəhid övladları - SİYAHI

***Bu il ali məktəblərə qəbul olan məzunlar arasında şəhid övladları da var.***

”Unikal” universitetə qəbul olan şəhid övladlarını təqdim edir:

Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu zamanı şəhid olan mühafizə xidmətinin rəisi Orxan Əsgərovun qızı Aysu Əsgərli Türkiyənin Bursa Uludağ Universitetinin Stomatologiya fakültəsinə daxil olub.

Vətən müharibəsində şəhid olan baş leytenant Azər Şəmilovun qızı Aynurə Şəmilova ADA Universitetinin Hüquqşünaslıq fakültəsində təhsil alacaq.

Şəhid polkovnik-leytenant Nail Orucovun oğlu Əlihəsən Orucov Azərbaycan Memarlıq və İnşaat universitetinə qəbul olub.

Vətən müharibəsində şəhid olan polkovnik-leytenant Mehman Qənbərovun oğlu Nurlan Qənbərov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Energetika mühəndisliyi fakültəsində təhsil alacaq.

Şəhid çavuş Niyazi İsgəndərovun oğlu Ömər İsgəndərov Mingəçevir Dövlət Universitetinin İnformasiya texnologiyaları fakültəsinə qəbul olub.

Şəhid polkovnik-leytenant Sənan Axundovun qızı Nəzrin Axundova - Sankt-Peterburq Dövlət Memarlıq və İnşaat Universiteti (QASU) Memarlıq fakültəsi.

Şəhid polkovnik-leytenant Raquf Orucovun oğlu Nihad Oruclu - İstanbul Texniki Universiteti, ADA Universiteti

Şəhid polkovnik-leytenant Atəm Əliyevin oğlu Vaqif Əliyev - Giresun Universiteti

Şəhid polkovnik Zaur Nudirəliyevin oğlu Ömər Nudirəliyev - Azərbaycan Memarlıq və İnşaat Universiteti, Kommunikasiya sistemləri mühəndisliyi

Şəhid baş leytenant Elmar İbayevin oğlu Hikmət İbayev - Alanya Alaaddin Keykubat Universiteti, Azərbaycan Dövlət Pedoqoji Universiteti

Şəhid mayor Əhməd Abdullayevin oğlu Hüseyn Abdullayev - Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Elektrik və elektronika mühəndisliyi

Şəhid çavuş Bəxtiyar Bəkirovun oğlu Yavər Bəkirov - Azərbaycan Tibb Universiteti, Hərbi tibb

Şəhid mayor Elşad Həsənovun qızı Aysun Həsənli - Xəzər Universiteti, Təsviri incəsənət müəllimliyi

Şəhid çavuş Rahib Fətəliyevin qızı Tavat Fətəliyeva - Azərbaycan Dövlət Pedoqoji Universiteti, Riyaziyyat müəllimliyi

Şəhid miçman Mirzə Axundovun oğlu Ağasəlim Axundzadə - İstanbul Aydın Universiteti

Şəhid mayor Sübhi Mürsəliyevin oğlu Rüstəm Mürsəliyev - Azərbaycan Texniki Universiteti

Şəhid mayor İlqar Verdiyevin oğlu Orxan Verdizadə - ADA Universiteti, Biznesin idarə edilməsi

**Mənbə: ”ZƏFƏR” Şəhid Ailələrinə Dəstək İctimai Birliyi**

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.




## Sədərəkdə sosial yardımın təyin olunması üzrə qanunsuz hallar aşkarlandı

***Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Daxili nəzarət və təhlil şöbəsi tərəfindən Sədərək rayonunda ünvanlı dövlət sosial yardımı üzrə təyinat aparılan aztəminatlı ailələrə aid müvafiq sənədlərin seçmə üsulla yoxlanılması və mənzil-məişət şəraitlərinin monitorinqinin aparılması zamanı əhəmiyyətli sayda qanuna uyğun olmayan hallar aşkar edilib.***

"Unikal" xəbər verir ki, "Ünvanlı dövlət sosial yardımı barədə" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilən "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi" qaydalarının kobud şəkildə pozulması müəyyən edilib.

Aşkar edilmiş hallar üzrə inzibati xəta və ya cinayət əlamətlərinə əsaslı şübhələr olduğunu nəzərə alaraq müəyyən edilən faktlara hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna göndərilib.

## Yaşlı insanlar üçün ideal otaq temperaturu 20-25 dərəcədir

***Aparılan yeni bir araşdırma zamanı ekspert qrupu 65 yaşdan yuxarı 50 nəfərin gecə yuxusunu izləyib. Tədqiqatda sözügedən yaş qruplarının rahat gecə yuxusu yatmaqları üçün otaq temperaturun vacibliyi müəyyən olunub.***

Araşdırmanın nəticəsində ciddi fərqlərin olduğu müəyyən edilib və 20-25 dərəcə otaq temperaturunun 65 yaşdan yuxarı olan şəxslərin düzgün yuxu yatması üçün ideal olduğu ortaya çıxıb. Bundan əlavə, tədqiqat komandası otaq temperaturu 30 dərəcədən yuxarı qalxdıqda yuxu keyfiyyətinin 5-10 faiz azaldığını aşkar edib.

Araşdırma qrupunun rəhbəri Harvard Universitetinin professoru Amir Baniassadi tədqiqat haqda danışıb: "Nəticələr evdə temperatur mühitinin optimallaşdırılması ilə yuxu keyfiyyətinin yaxşılaşdırıla biləcəyini göstərir. Eyni zamanda, bu araşdırma isti havaların yaşlı insanların yuxu keyfiyyətinə potensial təsirinin olduğunu sübut edib".

Tədqiqat qrupu gələcək işlərində isti havaların xüsusilə aşağı gəlirli yaşlı insanların yuxu keyfiyyətinə təsirlərini araşdırmağı planlaşdırır.

Qeyd edək ki, araşdırmanın nəticələri "Science of The Total Environment" jurnalında dərc edilib.

**ELAN**

**Bakı şəhər Abşeron rayon Saray qəs. Babək küç. ev 13 B ünvanda qeydiyatda olan 13.03.1983 təvəllüdlü Saray qəs.sakini Novruzova Samirə Elxan qızı adına verilmiş.qeydiyyat nömrələri 308013092068 və 308013126477 olan sənədlər itirildiyindən etibarsız sayılır.**

# Bir sıra QHT-lər Sərsəng su anbarında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb

***Sərsəng su anbarında yaranmış qəza vəziyyəti ilə əlaqədar ekoloji yönümlü qeyri-hökumət təşkilatları bəyanat yayıb.***

"Unikal" xəbər verir ki, bəyanatı "Sudan İstifadə Sahəsində Mütəxəssislər" İctimai Birliyinin sədr müavini Amin Məmmədov səsləndirib. Bəyanatda deyilir: "Biz, Azərbaycanın vətəndaş cəmiyyətini təmsil edən qeyri-hökumət təşkilatları birgə bəyanat verərək Sərsəng su anbarında yaranmış qəza vəziyyəti ilə əlaqədar dərin narahatlığımızı ifadə edirik.

Sərsəng su anbarının Ermənistan və onun himayə etdiyi qanunsuz rejimin törtöküntüləri tərəfindən qəsdən Azərbaycan əhalisinə qarşı ekoloji və sosial-iqtisadi terror vasitəsi kimi istifadə olunması yolverilməzdir.

47 il əvvəl istismara verilmiş Sərsəng su anbarının təmir və bərpasına ciddi ehtiyac var. 30 ildən artıqdır ki, Ermənistan bu su anbarını qanunsuz istismar edib, iqtisadi və ekoloji cinayətkarlıqla məşğul olub. Bu əməllərin davam etdirilməsi yolverilməzdir.

Azərbaycanın rəsmi qurumlarının bu yaxınlarda Sərsəng ilə əlaqədar yaydığı bəyanatda (https://azertag.az/en/xeber/Joint statement issued re garding situation around Sarsang reservoir-2740762) qeyd edilir ki, anbarın mövcud qəza vəziyyəti onun aşağı hissəsində yerləşən yaşayış məntəqələri, təsərrüfatlar və infrastruktur obyektləri üçün ciddi təhlükə yaradır.

Uzun illər bu su anbarının suyu qış vaxtı ərazinin mövsümü ehtiyacları nəzərə alınmadan əhalisi azərbaycanlılardan ibarət olan kəndlərə buraxılıb və nəticədə yaşayış məntəqələri, kənd təsərrüfatı sahələri və kommunikasiya xətləri qışda su altında qalıb. İsti yay mövsümündə isə su buraxılmayıb, bu da kəskin su qıtlığı, əkin sahələrinin suvarılmasında problemlər yaradıb, yaşıllıqlar quruyaraq məhv olub.



1966-cı il Helsinki və 2004-cü il Berlin Qaydalarına əsasən, sudan istifadə hüququ həyat və sağlamlıq üçün vacibdir və bu, digər insan hüquqlarından istifadənin ilkin şərtini təşkil edir.

Ermənistan heç vaxt Sərsəng su anbarı ilə əlaqədar beynəlxalq ictimaiyyətin çağırışlarına məhəl qoymayıb. Bunun bariz nümunəsi kimi Ermənistan Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi 2016-cı il 26 yanvar tarixli 2085 nömrəli Qətnamədə bu hərəkətlərin Azərbaycan vətəndaşları üçün humanitar və ekoloji problemlər yaratmağa yönəlmiş ekoloji təcavüz kimi qiymətləndirilməsindən nəticə çıxarmayıb. Həmin qətnamədə göstərilirdi ki, Sərsəng su anbarının düzgün idarə olunmaması çoxsaylı insan tələfatı və yeni humanitar böhrana gətirib çıxara bilən böyük fəlakət riskinə (https://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=22429&lang=en) malikdir.

Ötən dövrdə Ermənistanın qanunsuz fəaliyyətini davam etdirməsi Sərsəng su anbarında hər an dəhşətli humanitar fəlakətə səbəb ola bilər.

Böyük kənd təsərrüfatı potensialı və münbit torpaq ehtiyatlarına malik Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının suvarma tələb olunan əraziləri Ermənistanın Sərsəng su anbarı ilə əlaqədar özbaşınalıqlarının qurbanına çevrilib. Biz buna etiraz edirik! Sərsəng su anbarı təyinatı üzrə istifadə olunarsa, 100 min hektar əkin sahəsi aktiv kənd təsərrüfatı dövriyyəsinə cəlb oluna bilər.

Ermənistan törətdiyi digər ekoloji cinayətlər ilə yanaşı, Sərsəng su anbarının qanunsuz istismarı və ekoloji terror aləti kimi istifadəsi nəticəsində Azərbaycan iqtisadiyyatına vurduğu böyük zərərə görə Azərbaycan dövlətinə təzminat ödəməlidir.

Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində ekoloji terroru davam etdirənlər Azərbaycan Respublikasının ədalət mühakiməsinə cəlb edilməlidirlər. Biz Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına müraciət edirik ki, Sərsəng su anbarında yaranmış qəza vəziyyəti ilə əlaqədar mümkün olan bütün tədbirlər həyata keçirilsin!

Ermənistan və onun himayə etdiyi qanunsuz rejimin tör-töküntülərinin Azərbaycana qarşı ekoloji terror fəaliyyəti dərhal dayandırılmalı və Sərsəng su anbarının idarəçiliyi Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına təhvil verilməlidir".

# Kolleclərin boş qalan yerlərinə qəbul elan edildi

***Dövlət İmtahan Mərkəzi (DİM) (9 illik) ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerləri üzrə avqustun 31-dən sentyabrın 4-dək ixtisas seçimi elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə DİM məlumat yayıb.

Orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılırlar.



Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 50-dən az olmayan (fənlər üzrə bal məhdudiyyəti qoyulmur) və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılırlar. "Xoreoqrafiya sənəti (sahələr üzrə)" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) az olmayan abituriyentlər iştirak edə bilərlər.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerləri üzrə ixtisas seçimi 2023-cü il avqustun 31-dən sentyabrın 4-dək internet vasitəsilə aparılır. İxtisas seçmək hüququ olan abituriyent orta ixtisas təhsili müəssisələrinin dövlət hesabına və ödənişli əsaslarla olan 12-yə qədər ixtisas kodunu seçib https://eservices.dim.gov.az/erizetex/ixtisas2/ internet ünvanında yerləşən "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"ni doldurmalı və təsdiqləməlidirlər.

İxtisas kodlarının ardıcıllığını özü müəyyənləşdirir. Müsabiqə zamanı həmin ardıcıllıq hüquqi əsas kimi nəzərə alınır və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.

Xüsusi qabiliyyət tələb edən ixtisasları yalnız müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər seçə bilərlər. Abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçə bilərlər. Boş qalan ixtisasların siyahısı "Abituriyent" jurnalının xüsusi buraxılışında elektron formada təqdim olunub. Jurnalı (pdf formatında) DİM-in saytının "Elektron xidmətlər" bölməsində "DİM nəşrlərinin elektron versiyalarının onlayn satışı" xidməti vasitəsilə ödəniş etməklə əldə edə bilərsiniz: <http://eservices.dim.gov.az/ejurnal/>).

# Suvarma kanalları və kollektor-drenaj sistemləri lildən təmizlənir

***Cəlilabadda bütün suvarma kanalları lildən təmizlənir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, 11 min hektardan artıq əkin sahəsinə xidmət edən Cəlilabad Suvarma Sistemləri İdarəsində ilin əvvəlindən etibarən suvarma mövsümünə ciddi hazırlıq işləri görülüb, bütün meliorativ tədbirlər yekunlaşıb.***

İdarə sahələrin suvarılması üçün mənbə olaraq Cənubi Muğan kanalı və 3 ədəd su anbarından istifadə edir. Balansda olan suvarma kanallarının böyük əksəriyyəti torpaq məcralı olduğundan, bu kanallar mütəmadi olaraq lildən və kol-kosdan təmizlənir ki, bununla da suyun axını maneəsiz olaraq təmin edilir, əkin sahələrinin suvarılması yaxşılaşdırılır.



Cəlilabad rayonunda hər il əkilən kənd təsərrüfatı bitkiləri normal qaydada suvarılır. Əsasən də suvarma mövsümündə bir-neçə dəfə suvarılan pambıqdan daha keyfiyyətli və bol məhsul əldə edilir. Fermerlərdə son illər pambıqçılığa maraq artıb.

Cəlilabad Suvarma Sistemləri İdarəsinin balansında 495 hektar əkin sahəsinə xidmət edən 112-ədəd subartezian quyusu və 12 ədəd nasos stansiyası var ki, bunların da hər birinə mütəmadi olaraq baxış keçirilərək təmir olunur. Subartezian quyularının dərinlik nasosları, nasos stansiyaların isə nasos aqreqatları daim saz vəziyyətdə saxlanılır. Bundan başqa kanallar üzərində olan hidrotexniki qurğular da təmir olunur.

Qeyd edək ki, Cəlilabad Suvarma Sistemləri İdarəsi tərəfindən cari təmin işləri çərçivəsində 3 ədəd nasos stansiya, 15 ədəd subartezian quyusu, 18 ədəd hidrotexniki qurğu və 1.5 km nov kanal cari təmir olunub.

İmişlidə kollektor-drenaj sistemləri lildən təmizlənir. Dilqəm Şərifov bildirib ki, İmişli rayonu ərazisində yerləşən Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi İmişli rayonu ərazisində 36 min hektara yaxın meliorasiya olunmuş torpaqlarda 1531 km kollektor və drenaj sisteminin istismarına xidmət edir. İdarə torpaqların melioartiv cəhətdən yaxşılaşdırılması üçün kollektor drenaj sistemlərinin lildən təmizlənilməsi və onlar üzərində yerləşən hidrotexniki qurğuların cari və əsaslı təmiri işlərini həyata keçirir. 2023-cü ilin yanvar ayından etibarən maşın mexanizmlərinin gücü ilə rayon ərazisindəki kəndlərdə daxili təsərrüfat kollektorları lildən təmizlənərək işlər davam etdirilir. Bunun nəticəsində səth və qurunt sularının normal axımı təmin edilir, torpaqlar melorativ cəhətdən yaxşılaşır, bu da kənd təsərrüfatı bitkilərinin normal inkişafına şərait yaradır.

Rayon ərazisində 2023-cü il və gələcək illərdə təsərrüfat daxili kollektor-drenaj sistemi ilə yanaşı həmçinin təsərrüfatlar arası və magistral kollektorlarda da lildən təmizləmə və digər təmir işlərin davam etdirilməsi planlaşdırılır. Artıq əvvəlki illərdə əkin aparılmayan sahələrdə müxtəlif növ kənd təsərrüfatı təyinatlı bitkilər əkilir, zaman keçdikcə şoranlaşan torpaqlar kollektor-drenaj sistemlərinin vaxtında təmizlənməsi ilə əkinə yararlı vəziyyətə gətirilir. Bütün bu işlər Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsinin texnikaları vasitəsi ilə həyata keçirilir. Hazırda texnikalar bir-neçə istiqamətdə bu işləri yerinə yetirir.

Qeyd edək ki, kolketor-drenaj sistemlərinin təmizlənməsi sistemli şəkildə aparılır. Təsərrüfatdaxili kollektorlar lildən təmizlənərək əsas kollektorlara ötürülür. Bu kollektorlar da magistral kollektorlara qoşulur. Ən sonda magistral kollektorlar qurunt sularını rayon ərazisindən kənarlaşdırır.

Sumqayıt Melioservis İdarəsi tərəfindən Qazaxda meliorativ tədbirlər görülür. Dilqəm Şərifov bildirib ki, Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Sumqayıt Melioservis İdarəsi ölkənin əksər rayonlarında meliorativ tədbirlər çərçivəsində əsaslı təmir işləri görür, bir çox layihələri yerinə yetirir. İdarənin gördüyü işlərdən biri də Qazax rayon Şıxlı kəndi ərazisində, əkin sahələrinin suvarılmasının yaxşılaşdırılması layihəsidir.

2023-cü il ərzində yekunlaşdırılması nəzərdə tutulan layihə nəticəsində 700 hektara yaxın əkin sahəsinin suvarılması yaxşılaşacaq. Xram çayından götürülən suyun borular vasitəsilə sahələrə verilməsi nəticəsində bu vaxta qədər suvarılması çətin olan ərazilər də suvarma suyu ilə təmin olunacaq. Artıq rayonun müxtəlif ərazilərində texnikalar və idarənin işçi heyəti tərəfindən tikinti və quraşdırma işləri fasiləsiz olaraq davam etdirilir.

Qeyd edək ki, Sumqayıt Melioservis İdarəsi ölkənin bir çox rayonlarında, hazırda isə qərb bölgəsinin Qazax və Ağstafa rayonunda əsaslı təmir işləri həyata keçirir. Bu işlərə boru xəttlərinin çəkilməsi və nasos stansiyaların ətrafının abadlaşdırılması işləri daxildir.

***Hüseyn İsgəndərov***

# Vətənin qeyrətli, mətin oğlu...



***Vətənimizin qeyrətli, mətin oğulları İkinci Qarabağ müharibəsində doğma Azərbaycanın ərazi bütövlüyü uğrunda canı, qanı bahasına zəfər qazanmaqla şanlı tarix yazdılar. Qazanılan parlaq qələbədə Azərbaycan Ordusunun baş leytenantı Əlimərdan Fəttah oğlu Quluzadə də son nəfəsinə qədər döyüşərək öz şərəfli ölümü ilə böyük bir xalqın mərdlik, qəhrəmanlıq simvoluna çevrildi.***

Ulu, əzəli Vətən torpağının bağrına zəfər bayrağını sancan Əlimərdan Quluzadə 1993-cü il fevralın 14-də Masallı rayonunun Birinci Yeddioymaq kəndində anadan olub. Uşaqlıqdan Azərbaycanın müqəddəsliyinə tapınan bu, Vətən sevdalısı canına yağı dadanmış yurdumuzun qisasını almaqdan ötrü həyatını hərbi sənətinə bağlayır. 2018-2011-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə və 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alaraq leytenant rütbəsində Vətənə sipər olmaq üçün cəbhə bölgəsinə yollanır. Ləyaqətli bir oğul olaraq xidmət borcunu şərəflə yerinə yetirir. Xidmət zamanı fəallığı, nizam-intizamı nümunə göstərilir. Hər dəfə də "Əsir torpaqlar öz qeyrətli oğulların yolunu həsrətlə gözləyir. Döyüş meydanında düşməni əzib cənnət məkan Qarabağı azad etmək bizim Vətən qarşısında oğulluq borcumuzdur"-deyir.

Vətən torpaqların düşmən tapdağı altında qalmağına heç cür dözməyən Əlimərdan Quluzadə 2016-cı il uğurlu Aprel döyüşlərinə qəhrəman oğlanlarımız sırasında odlu-alovlu səngərlərdə ilk yerini alanlardan olur. Döyüşçü yoldaşları ilə düşmənə qan qusdurub hektarlarla Azərbaycana məxsus torpaqlar, Lələ-təpə azad olunur. Bununla həm də böyük zəfərimizin təməli qoyulur. İgid zabit isə bundan sonra seçdiyi peşəyə daha ürəklə bağlanır. Orduda nümunəvi xidmət göstərdiyinə görə baş leytenant rütbəsi və bir sıra medallara layiq görülür.

2020-ci il sentyabrın 27-də haqq savaşımızda baş leytenantın ağır müharibə meydanlarında keçdiyi rəşadətli döyüşün hər anı fədakarlıqla, mərdliklə yazılır. Füzulinin azadlığı uğrunda gedən ağır savaşda düşmən önündə əsl qəhrəmanlıq nümunəsini göstərir. Oktyabrın 6-da Füzulidə gedən qanlı döyüşlər zamanı canından artıq bağlandığı Azərbaycanımızın ərazi bütövlüyü naminə sinəsini düşmən güllələsinə sipər etməklə müqəddəs şəhidlik zirvəsinə ucalır. Bununla da hər kəsə qismət olmayan, zaman-zaman gələn nəsillərə örnək olacaq şərəfli bir həyat yolu keçir. Milyonların qəlbində özünə əbədi yuva quran Masallının qəhrəman oğlu ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", Cəbrayılın və Füzulinin azadlığına görə medalları ilə təltif edilir.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Şəhidin xanımı və oğlu tələbə adı qazandı



***Vətən müharibəsində şəhid olan polkovnik-leytenant Nail Orucovun həyat yoldaşı və oğlu tələbə adı qazanıblar.***

"Unikal" xəbər verir ki, şəhidin oğlu Əlihəsən Orucov Azərbaycan Memarlıq və İnşaat Universitetinin Sənaye mühəndisliyi ixtisasına, həyat yoldaşı Nigar Ağamalıyeva isə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olub.

Qeyd edək ki, 1995-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edən Nail Orucov 2016-cı ildə ehtiyata buraxılıb. Polkovnik-leytenant Nail Orucov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinə qatılıb. Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb, oktyabrın 31-də Qubadlının azad edilməsi zamanı şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

# Araik Arutyunyan "istefa verdi"



***Qarabağdakı erməni quldurlarının başçısı Araik Arutyunyan "istefa verib".***

"Unikal" xəbər verir ki, bu barədə Araik Arutunyan "Facebook" hesabında yazıb.

Separatçıların lideri bildirib ki, "dövlət naziri" Qurgen Nersisyan işdən çıxarılıb. Onun əvəzinə Samvel Sergey Şahramanyan "dövlət naziri" keçib.

Erməni KİV qeyd edir ki, bundan sonra Qarabağdakı separatçılara heç kim liderlik etməyəcək.

***Ağarza Elçinoğlu***

# "Zelenskiyə qarşı hərbi çevriliş ola bilər" - Amerika kəşfiyyatçısı



***Ukrayna ordusu əks-hücum uğursuz olarsa, öz prezidenti Vladimir Zelenskini istefaya göndərmək istəyə bilər.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu fikri ABŞ kəşfiyyatının keçmiş əməkdaşı Skot Ritter səsləndirib.

"Onun aradan götürülməsi üçün artıq hər şey hazırdır və bunu Ukrayna hərbçiləri edəcək", - Ritter bildirib.

O, əlavə edib ki, Ukrayna prezidenti bundan qaça bilməyəcək.

***Nuranə Abbasova***

# Keçmiş deputat Əhməd Həmzəyev güllələndi



***Dağıstan Respublikası Xalq Məclisinin keçmiş deputatı Əhməd Həmzəyev öldürülüb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, məlumatını siyasətçinin qızı təsdiqləyib. O, atasının artıq dəfn olunduğunu bildirib.

Onun sözlərinə görə, 55 yaşlı eks-deputat avqustun 26-da Moskva vilayətində öldürülüb. Hadisəni törədənlər odlu silahdan istifadə ediblər.

# Lukaşenko Polşanın "Vaqner"lə bağlı tələbini rədd etdi



***Belarus prezidenti Aleksandr Lukaşenko Polşa və Baltikyanı ölkələrin "Vaqner" özəl hərbi şirkətinin (PMC) ölkə ərazisindən çıxarılması ilə bağlı tələblərini yerinə yetirməkdən imtina edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Belarus lideri bu hərəkətlərinə görə onları axmaq adlandırıb.

"Eyni zamanda, onlar özləri hərbi büdcələri artırır, böyük hərbi birləşmələri sərhədlərimizə çəkirlər", - prezident bildirib.

Lukaşenko vurğulayıb ki, bu halda Polşa və Baltikyanı ölkələr də bütün xarici hərbçiləri çıxarmalıdır: "Bu arada bunlar ağılsız və axmaq tələblərdir".

***Ağarza Elçinoğlu***

# Gürcüstan prezidentinin xarici səfərlərinə qadağa qoyuldu

***Gürcüstan prezidenti Salome Zurabişvilinin Avropa turnesi ləğv edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstan hökumətinin administrasiyası açıqlayıb.

Qeyd olunub ki, dövlət artıq avqustun 31-nə planlaşdırılan Almaniyaya səfərdən yazılı şəkildə imtina edib.

"Bundan başqa, prezidentə avqust-dekabr ayları arasında daha 9 səfərə icazə verilməyib. Söhbət Ukrayna, İsveçrə, Polşa, Belçika, Danimarka və Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərlərdən, Bolqarıstan, Çexiya və İsrailə rəsmi səfərlərdən gedir. "Salome Zurabişviliyə xatırladırıq ki, Gürcüstan Konstitusiyasına görə, prezident ölkəni xaricdə yalnız hökumətin razılığı ilə təmsil edir, çünki ölkənin xarici siyasətinin həyata keçirilməsi hökumətin vəzifəsidir", - bəyanatda deyilir.



# Qarabağda Vardanyanı əvəz edən separatçı "istefa verdi"

***Qarabağda Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarət sahəsində qalmaqda olan erməni separatçılarının "dövlət naziri" Qurgen Nersisyan istefa verib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb. O, artıq istefa ərizəsini yazaraq separatçıların liderinə verib.

Qeyd edək ki, Nersisyan Rusiyanın Qarabağa göndərdiyi erməni milyarder Ruben Vardanyanı əvəz etmişdi.

Hazırda terrorçu rejimin lideri Arayik Arutyunyanın da istefa verməsi gözlənilir.

***Ağarza***



# Priqojinin biznes ortağı Bolqarıstanda həbs edildi

***"Vaqner PMC" şirkətinin təsisçisi Yevgeni Priqojinin keçmiş biznes ortağı Vasili Bojkov Bolqarıstanda Rusiya tərəfindən ölkə hakimiyyətinə təsir kanalının təşkilində şübhəli bilinərək həbs edilib.***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, Sofiya hava limanında saxlanarkən o, "adını məhkəmədə təmizə çıxarmaq üçün" könüllü olaraq Bolqarıstana qayıtdığını bildirib. Bojkov ən zəngin bolqar və qeyri-rəsmi olaraq ölkənin "qumar biznesinin kralı" sayılır.



O, bir neçə onlarla ittiham üzrə cinayət təqibindən gizlənərək BƏƏ-də son üç ilini keçirib. Bunlardan biri də maliyyə naziri və baş nazirə külli miqdarda rüşvət verilməsi ittihamıdır.

Bildirilir ki, Priqojinlə Bojkov 2020-ci ildən "Vaqner" təsisçisinin təyyarəsinin qəzaya uğradığı günə qədər bir-biri ilə əlaqə saxlayıblar.

***Nuranə Abbasova***

# Ukraynanın yeni müdafiə naziri Rustem Umerov olacaq? - Reznikov gedir

***Ukraynanın müdafiə naziri Oleksiy Reznikov işdən çıxarılaraq Böyük Britaniyaya səfir təyin ediləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Ali Radanın deputatı Yaroslav Jeleznyak bildirib.

Onun sözlərinə görə, artıq müdafiə idarəsinin rəisi vəzifəsinə yeni namizəd müəyyənləşib, dəyişiklik sentyabrın ilk həftəsində baş tutacaq.

Deputat qeyd edib ki, Ukrayna Dövlət Əmlak Fondunun rəhbəri Rustem Umerov nazir postunda Reznikovu əvəz edəcək.

Qeyd edək ki, Rustem Umerov Özbəkistan SSR-də anadan olub, milliyyətcə krım tatarıdır.

***Ağarza Elçinoğlu***

# ABŞ vətəndaşlarını bu ölkəni mümkün qədər tez tərk etməyə çağırdı

***ABŞ səfirliyi Haitidə davam edən iğtişaşlar və siyasi təlatümlər fonunda Amerika vətəndaşlarını ölkəni mümkün qədər tez tərk etməyə çağırıb.***

"Unikal" "The Washington Post"a isitnadən xəbər verir ki, yayılmış müraciətdə vətəndaşlardan təhlükəsiz yerə getmələri xahiş olunur.

"Mövcud təhlükəsizlik vəziyyətini və infrastruktur problemlərini nəzərə alaraq, Haitidəki ABŞ vətəndaşları kommersiya və ya şəxsi nəqliyyat vasitəsi ilə Haitini mümkün qədər tez tərk etməlidirlər. Əgər yolda maneə ilə rastlaşsanız, geri dönün və təhlükəsiz yerə gedin".", - səfirliyin bəyanatında deyilir. Xatırladaq ki, keçən ay ABŞ Haitinin paytaxtı və ən sıx məskunlaşdığı şəhər olan Port-o-Prensdəki səfirlikdən hökumət işçilərini və diplomatların ailə üzvlərini təxliyə edib.

Haiti 2021-ci ilin yayında prezident Jovenel Moizin öldürülməsindən sonra kəskin ictimai-siyasi böhran yaşayır.

***Nuranə Abbasova***

# Şəhidlərin şərəfinə idman yarışları keçirilib



***Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Lerik rayonu üzrə Gənclər və İdman sektorunun təşkilatçılığı ilə Vətən Müharibəsi Qəhrəmanı mayor Amid Heydərovun xatirəsinə həsr olunmuş gənclər arasında futzal yarışı başa çatdı.***

Yarışda Lerik rayon gənclərini təmsil edən 15 komanda 4 yarımqrupda birincilik uğrunda gərgin mübarizə apardılar. 10 gündən çox davam edən yarışın qalibi Lerik şəhərini təmsil edən Rayon Mərkəzi Xəstəxanasının “RMX” komandası oldu. 2-ci yerə Əvilə kəndini təmsil edən “Əvilə” komandası çıxdı. Lüləkəranın “Lüləkəran” komandası isə 3-cü yeri tutdu.

Qalib komandalara Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin diplom, medal və kubokları təqdim edildi.

Onu da bildirək ki, təltif etmə tədbirdə Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Lerik rayonu üzrə Gənclər və İdman sektorunun müdiri, Lerik Rayon İcra Hakimiyyətinin Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri, Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Lerik rayon şöbəsinin müdiri iştirak etmişlər.

Lənkəran-Astara Regional Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə R. İbadov adına Cil kənd tam orta məktəbinin stadionunda isə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə təşkil edilmiş mini futbol turniri start götürdü və ilk qrup oyunları keçirildi.

Onu da bildirək ki, yarışın açılışına Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə, idarənin əməkdaşları, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, ağsaqqalları, ziyalıları, eləcə kənd sakinləri qatılmışdı.

Kənd ərazisində şəhidlərin xatirəsinə ucaldılan parkı ziyarət etdikdən sonra tədbir Azərbaycan Respublikası Dövlət Himni oxunması və şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etməklə başladı.

Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə çıxışında bütün komandalara uğurlar arzuladı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə idmana olan diqqət və qayğısının yüksək səviyyədə olduğunu bildirən Teymur Babazadə bu siyasətin gələcək nəslin sağlam yetişməsi, eyni zamanda bədən tərbiyəsi və idmanın inkişafı məqsədini daşıdığını bildirdi. O, qeyd etdi ki, nəinki rayonumuzda, regionda da idman yarışlarının, idmanın kütləviliyinin artırılması məqsədilə tədbirlər təşkil edilir, bədən tərbiyəsi və idmanın əsas istiqamətləri müəyyən olunur və davamlı işlər görülür.

Çıxış edən digər natiqlər isə bu kimi tədbirlərin yeniyetmə və gənclərin fiziki inkişafı ilə yanaşı, onların vətənpərvərlik tərbiyəsinin inkişafında böyük önəm daşıdığını bildirdilər.

Yarışan komandalar 13 sentyabra qədər yaşıl meydançada şəhidlərin şərəfini uca tutmaqla qələbə uğrunda mübarizə aparacaqlar.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# AFFA “Sabah” və “Neftçi”nin futbolçusunu cəzalandırdı

***“Sabah” və “Neftçi”nin futbolçusu cəzalandırılıb.***

“Unikal” xəbər verir ki, AFFA İntizam Komitəsinin bu gün keçirilən iclasında Amin Seydiyev və Rza Cəfərovun cəza müddəti açıqlanıb.




Premyer Liqanın “Zirə”yə qarşı keçirilən IV turunun oyununda ciddi qayda pozuntusuna görə birbaşa qırmızı vərəqə alan “Sabah”ın müdafiəçisi Amin Seydiyev komandasının qarşıdakı 2 matçını buraxacaq. “Qəbələ” ilə qarşılaşmada rəqibi aşkar qol vurmaq imkanından məhrum etdiyi üçün birbaşa qırmızı vərəqə alan “Neftçi”nin qapıçısı Rza Cəfərov isə 1 matçlıq diskvalifikasiyaya məruz qalıb. “Sabah” 1500, “Neftçi” isə 800 manat cərimələnib.

“Neftçi” - “Qəbələ” görüşü bitdikdən sonra meydançaya kənar şəxslərin daxil olması Bakı klubunu daha 800 manat ziyana salıb.

“Qarabağ” - “Kəpəz” oyununda da eyni hal yaşanıb. Bu, ağdamlıların 800 manat cərimələnməsinə səbəb olub.

# "Neftçi"nin yeni transferindən açıqlama

***”Sözün əsl mənasında kluba, komanda yoldaşlarıma məni yaxşı qəbul etdiyi üçün təşəkkür edirəm. Böyük tarixi olan klubu təmsil etmək qürurdur. Əlimdən gələni edəcəm ki, ”Neftçi”nin uğurlarına faydam olsun”.***

Bu sözləri ”Neftçi”nin yeni transferi Dieqo Valdez klubun telekanalına açıqlamasında deyib.

”Bir neçə həmyerlimin burada oynadığını bilirəm. Amma onlarla danışmaq imkanım olmayıb. Onlar burada necə yaxşı olubsa, mən də bunu davam etdirmək istəyirəm” - deyə o bildirib.

Paraqvaylı yarımmüdafiəçi sağlam rəqabətin komanda üçün faydalı olduğunu vurğulayıb: ”Hər oyunçu üzərində təzyiq hiss edir və özünü yaxşı tərəfdən göstərməyə çalışır. Son qərarı məşqçi verir. Çalışacam ki, özümü yaxşı tərəfdən göstərim, məşqçi də məni seçsin”.




”Neftçi” Dieqo Valdezlə 1+1 illik müqavilə imzalayıb. 29 yaşlı futbolçu 6 nömrəli formanı geyinəcək.

# “Qarabağ” Avropa Liqasının qrup mərhələsinə adladı

***Azərbaycan çempionu “Qarabağ” bu gün növbəti avrokubok oyununu keçirib.***




”Unikal”ın məlumatına görə, Qurban Qurbanovun yetirmələri Avropa Liqasının pley-offunda cavab matçına çıxıb.

Ağdam klubu evdə “Olimpiya” ilə üz-üzə gəlib. Sloveniyada 2:0 hesablı inamlı qələbə qazanan “Qarabağ” Avropa Liqasının qrup mərhələsində oynamaq üçün üstünlüyünü qoruyub.

Qeyd edək ki, “Qarabağ” ardıcıl 10-cu dəfə qrupda çıxış edib. Ağdamlılar 2017/18 mövsümündə Çempionlar Liqasında, 2014/15, 2015/16, 2016/17, 2018/19, 2019/20, 2020/21 və 2022/23 mövsümlərində Avropa Liqasının, 2021/22 mövsümündə Konfrans Liqasının qrupunda mübarizə aparıb.

**Avropa Liqası**

Pley-off, cavab oyunu

**31 avqust**

20:00. ”Qarabağ” (Azərbaycan) - ”Olimpiya” (Sloveniya) - 1:1

Qollarr: Toral Bayramov, 24 (pen.) - Kosta Pinto, 34

Baş hakim: Alexandro Ernandes (İspaniya)

”Qarabağ”: 23. Luka Quqeşaşvili, 44. Elvin Cəfərquliyev, 81. Kevin Medina, 13. Bəhlul Mustafazadə, 27. Toral Bayramov, 6. Julio Romao, 8. Marko Yankoviç, 7. Yassin Benzia, 15. Leandro Andrade, 10. Abdullah Zubir (k), 19. Redon Cica

Ehtiyat oyunçular: 1. Şahruddin Məhəmmədəliyev, 99. Andrey Lunyov, 2. Mateus Silva, 4. Rahil Məmmədov, 5. Maksim Medvedev, 11. Adama Diakabi, 18. Hamidu Keyta, 18. Juninyo, 20. Riçard Almeyda, 90. Nəriman Axundzadə, 83. Nihad Quliyev.

Baş məşqçi: Qurban Qurbanov.

”Olimpiya”: 69. Matevj Vidovşek, 2. Xorxe Silva, 6. Mateo Karamatiç, 14. Marsel Ratnik, 43. Aylaz Krefl, 10. Timi Elşnik (k), 23. Dioqo Pinto, 34. Aqustin Doffo, 99. Rui Pedro, 20. Nemanya Motika, 37. Pedro Lukas

Ehtiyat oyunçular: 22. Denis Pintol, 31. Jan Maurisio, 8. Yustas Lasiçkas, 11. Saar Fedida, 9. Mustafa Nukiç, 15. Marko Ristiç, 33. Nemanya Qavriç, 16. Ahmet Muhamedbeqoviç, 17. Admir Bristiç, 21. İvan Posaveç, 77. Aldin Yakupoviç.

Baş məşqçi: Joao Enrikes.

Tofiq Bəhramov adına Respublika stadionu

İlk oyun - 2:0

# Əfran İsmayılov cəzalandırıldı

***AFFA İntizam Komitəsi “Araz-Naxçıvan”ın məşqçisi Əfran İsmayılovu cəzalandırıb.***



“Unikal” xəbər verir ki, buna gənc mütəxəssisin Premyer Liqanın IV turunda “Sumqayıt”la oyundakı davranışı səbəb olub.

İsmayılov matç bitdikdən sonra rəsmi şəxslərin tələblərinə əməl etmədiyindən, 1-i şərti olmaqla 2 oyunluq cəzaya məruz qalıb. “Araz-Naxçıvan” isə 1000 manat cərimələnib.

Bundan başqa, görüş ərzində 5 futbolçusu sarı vərəqə alan “Sumqayıt” 700 manat cəriməyə məruz qalıb.

# Karrasko ərəb klubuna keçə bilər



***”Atletiko”nun futbolçusu Yannik Karrasko komandadan ayrıla bilər.***

”Unikal” xəbər verir ki, bu barədə məşhur insayder Fabritsio Romano məlumat yayıb.

”Əl Şabab” klubu belçikalı vingerlə razılıq əldə edib. ”Atletiko” isə qarşı tərəfdən böyük məbləğ tələb edi.